NƏSİR
QƏDİRLİ

QİSAS

Bakı – Mütərcim – 2018

Redaktor:

Oqtay Abbas

Nəsir Qədirli. QİSAS. – Bakı: Mütərcim, 2018. – 96 səh.

Q $\frac{4702060000}{026}$ 155-18

© N.Qədirli, 2018

ÖN SÖZ

İllər boyu tanıdığım, tələbəlik illərinin əziz yadigarlarından olan Nəsir Qədirlinin sayca üçüncü kitabına ön söz yazmaq şərəfinə də nail oldum. Əlbəttə bu sözlər heç də gəlişi gözəl deyildir, tam səmimi, ürəyimin sarı simindən keçən hisslərin ifadəsidir.

Tələbəlik illərindən həmişə poeziya ilə dərindən maraqlanan onun nəzəri və təcrübi məsələlərini dərindən özündə əxz edən Nəsir Qədirli Şekspir, Bayron, Heminquey, Uolles kimi söz sənət adamlarının əsərlərini orijinalda təhlil etməyi bacaran bir mütəxəssis kimi yetişmişdir. Əlbəttə hər ingilis dili müəllimi bunu edə bilməz. Xalq arasında belə bir deyim vardır "Hər parlayan qızıl olmaz, hər oxuyan Molla Pənah". Məhz Nəsir Qədirli haqqında da bu sözləri tam məsuliyyətlə deyə bilərəm. Hesab edirəm məhz ədəbiyyata olan sevgi və məhəbbət Nəsiri birbaşa ədəbiyyat aləminə gətirib və İngilisdilli Kanada ədəbiyyatı üzrə Azərbaycanda tək-tək olan filologiya üzrə fəlsəfə doktorudur. Uzun illərdir həmin ölkələrin ədəbiyyatını gənc nəslə öyrədir.

Gənc nəslə xarici ədəbiyyatı öyrətməklə bərabər özü də həm şeir yazır, həm də orijinaldan tərcümələr edir. "Dünya məni aldadıb" şeirlər kitabı ilə poeziya aləminə vəsiqə alan Nəsir Qədirli sonrakı illər "Həqiqətlər, Gümanlar" adlı şeirlər kitabını çap etdirmişdir və həmin kitab haqqında bu sətirlərin müəllifi mətbuatda rəylə çıxış etmişdir.

"Qisas" adlandırılan üçüncü kitabda da Nəsir Qədirli öz ənənəsinə sadiq qalaraq bu kitabda əvvəlki kitablarında olduğu kimi hər birimizin qəlbində həmişə sızıltı yaradan Qarabağ mövzusuna müraciət edib və həm poemanın adı,

həm də kitabın adını "Qisas" qoymuşdur və hesab edirəm çox lakonik və yerində işlədilən bir addır.

Kitabın ilk misrasından insan qəlbi cuşa gəlir, çünki bu bir haray, nalə, çağırışdır və insanı bir daha döyüşə, həqiqətləri bərpa etməyə çağırır.

İki yüz il-iki əsir
Xalqım olub əsir-yesir.
Gah şimaldan,
Gah cənubdan
Hücum çəkib
Qarı düşman.

Poemanı bitirdikdən sonra sanki faciələri bir daha xatırlatmaq üçün bədnam qonşulara deyir:

Heç bilirsiz oba nədir, Vətən nədir, yurd ha nədir,
Tük ürpədən sızıltı nə, ulartı nə, qurd ha nədir.

Və bununla da oxucunun diqqətini bir daha onlara qarşı çevirir. Başqa bir şeirində isə Nəsir Qədirli vurğulayır ki,Qurbət vətən deyil və bunun ardınca "İgid əsgər tətiyi çək". Sanki Nəsir Qədirli düşdüyü şeir aləminin sehrindən heç cürə çıxa bilmir və eyni məhəbbət və sevgi ilə "Zəfərlərə səsləyən həsrət" şeirini son misralarını belə ifadə edir.

Tarix bizi bağışlamaz hər dəfə
Çaşmaq olmaz, vurmalıyıq hədəfə
Qisas almaq bizə düşüb bu dəfə
Haray Vətən! Haray Torpaq! Haray El!

Bu misralardan sonra ürəkləri riqqətə gətirən başqa bir şeirində "Nənəmin qara inəyi"-ndən söhbət açır. Köçkünlük vaxtında başqa bir məkanda hətta inəyin hansı hisslər keçirməsini çox duyğulu şəkildə poeziya kəhkəşanından qida alan Nəsir Qədirli obrazlı şəkildə belə nəzmə çəkib.

Nənəmin səsini eşitcək inək
Elə bil üstünə əsdi bir külək
Keçmiş günlərini yadına saldı
Tökdü göz yaşını inək çağladı
Nənəm dözəmmədi, nənəm ağladı
Mənim özümün də anam ağladı.

Kitabın ikinci hissəsinin "Dünya məndən keçir" adlandırılması da Nəsir Qədirlinin əvvəlki kitablarında olduğu kimi sadəcə poeziya deyil etik-fəlsəfi məsələlər nəzmlə onun qələmi vasitəsilə bir tablo kimi təsvir edilmişdir.

Bu hissədə deyərdim ki, poeziyanın meyarı hər şeydən əvvəl hər bir sənətkarın yetkinlik meyarıdır, onun həyat təcrübəsində olan fəlsəfi və mənəvi müdrikliyin meyarıdır və şəxsiyyətinin harmoniyasıdır. Bunları qeyd edərkən o şeirlərə əsasən vurğulamaq istərdik ki, bir-birinin ardınca "Ümidim mənim, dözümüm mənim", "Zaman, ömür və mən", "Dünya dünya kimi başa düşülmür" kimi şeirlərdə öz məqsəd və məramını ifadə edə bilib. Dünyada gedən proseslərə, ikili münasibətlərə görə öz narahatlığını poeziyanın dili ilə belə deyib:

Kimi haqqı danır, kimi imanın,
Gələn sabahlara qalmır gümanın
Bəlkə günahkardır özü zamanın
Dünya dünya kimi başa düşülmür

Və həmin şeir nümunəsindən sonra Nəsir Qədirli daha bir addım irəli ataraq sözün qüdrətini qəbul etməklə yanaşı dünyada baş verən hadisələri təsvir etmək üçün millətin başına gətirilən faciələri dərdləri sözlə ifadə etməyin mümkünsüzlüyünü ön plana çəkərək "Dərd sözə sığmayanda" şeirində belə bir tablo yaratmışdır.

Qayalar süstləşib lal olsa dağlar,
Qurusa susuzdan meyvəli bağlar,
Axıdar göz yaşın, ağlar bulaqlar
Vallah Kəlbəcərin daşı danışar.

Bununla belə Nəsir Qədirli bir an belə ruhdan düşmür həyata nikbin baxışla baxır və növbəti bölməni "Sayrışan ümidlər" adlandırır və beləliklə məhşur deyimin "Ümid sonuncu ölür" – işığına tapınaraq Əlirza Xələfliyə şeir ithaf edir, eləcə də ailədə olan artıma görə də lakonik və doğma olan bir şeir həsr etmişdir.

Nəhayətdə rus dilindən etdiyi çevirmələri də bu kitaba daxil etmişdir.

Ön sözün sonunu onunla bitirərək qeyd edirəm ki, Nəsir Qədirlinin poetik təfəkkür mədəniyyəti millidir və ümümibəşəridir. Bu müstəsna dərəcədə zəruri olan haldır ki, sən övladı olduğun xalqın dilçilikdə əsas nitq hissəsi olan, eləcə də xalqın nitq hissəsində feil olmağı bacarasan, xalqının, elinin, obanın canlı dil sənətkarlığına öz töhfəni verə biləsən.

Arzu edək ki, Nəsir Qədirli daha iri həcmli kitablar yazsın və biz oxucuları öz uğurları ilə sevindirsin.

Amil Cəfərov (Güneyli)
filologiya üzrə fəlsəfə doktoru, dosent

Zəfərlərə səsləyən həsrət

QİSAS

(poema)

İki yüz il – iki əsr
xalqım olub əsir-yesir.
Gah şimaldan,
gah cənubdan,
hücum çəkib
qarı düşman.
Onlar bizi dara çəkib,
asdırıblar,
Onlar bizi diri-diri
ocaqlara basdırıblar.
Uzun illər bu milləti
həm qırıblar,qırdırıblar,
Uzun illər bu millətin
vüqarını sındırıblar.
Bu millətin igidini,
ərənini,
gözlərinin düz içinə
anasını söyənini
“kulak” deyib,
“qaçaq”deyib
sibirlərdə çürüdüblər.
Çoxlarını diri-diri
divarlara hördürüblər.
İşğalçının biri gedib,
zaman keçib, biri gəlib.
Yenə itim, yenə ölüm,
bu xalq olub bölüm-bölüm.
Qanı axıb bu millətin
haqsız yerə neçə kərə.

Sığmayıbdır bu haqsızlıq
yerə, göyə.
Bu qanların cavabı yox,
qisası yox, əvəzi yox,
Bu millətə arxa duran
kimsəsi yox, dayağı yox,
Haqsızlığı ölçmək üçün
bir mizanlı tərəzi yox.
Amma yenə bu millətim
zülümlərdən qorxmadı heç,
dayanmadı, durmadı heç.
Öz kökünə dayandı o,
qeyrətinə sığındı o,
gələcəyə heç bir zaman
ümidini itirmədi,
əl saxlayıb sondu deyə,
döyüşünü bitirmədi.
Bir kimsədən kömək umub
minnətini götürmədi.
Bu milləti qira bilən,
çata bilən,
bir qul kimi bazarlarda
sata bilən,
bir düşmənim
olaydı kaş!
Çəkinməzdim,
ağrinmazdım,
qürur ilə bu düşmənin
ayağına qoyardım baş.
Bir düşmənim
olaydı kaş!
Nəsli-kökü bəlli düşmən,

qirx ayaqlı,əlli düşmən.
Qilinc çəkib at sürəydik,
bir nərəli zərbə ilə
torpaqları öpdürəydik.
Kişi kimi döyüşəydik,
kişi kimi bölüşləydik.
Silahsıza əl qaldırmaq –
bir qəbahət!
Silahsıza əl qaldırmaq –
bir cəhalət!
Tarixlərə yazılmamış
bir namərdlik,
İnsanlığa yaraşmayan
bir naqislik.
Belə düşmən görünməyib
indiyədək yer üzündə,
hiyləgərlik, terrorçuluq,
yazılıbdır
bu millətin üz – gözündə.
Niyyət qara, amal qara,
bəşəriyyət bu millətin
əməlində gəlib zara.
Harda gəldi küllənirlər,
əlin açıb utanmadan
kimdən gəldi dilənirlər.
Yal umurlar hər yetəndən,
danqı kimi qapılarda
sülənirlər.
Bu milləti harda gəldi
qaynadirlar,
təlxək kimi ələ salıb
oynadırlar.

Bu millətin çörəyi də
dizi üstə,
abırı yox, həyası yox,
darğasının qabağında
sürünürlər üzü üstə.
Bu millətin tayfası yox,
zatı qırıq bir kimsənə,
qatır kimi mayası yox.
Bu millətin özü budur,
astarı bu, üzü budur,
həqiqəti danmaq olmur,
doğrusu bu, düzü budur.
Gör kimlərin əllərində,
gör kimlərin dillərində,
qalıb bizim bu yaxamız,
elə bil ki, çatışmırmış
iki harsın, bir dığamız.
Bir cüt dığa, bir cüt harsın!...
Bəs bu qisas necə olsun.
Bu qisası dığalardan,
yersiz, soysuz yağılardan,
kim istəsin, kimlər alsın!
Yenə yoxsa qisasımız,
gələn ilə, əsrə qalsın?
Neçə-neçə obamızda,
neçə-neçə qırğın olub,
soyğun olub.
Bu qırğınlar, bu soyğunlar
içimizdə tüstülənib
bir sönməyən məşəl olub!
Qırğın olub, soyğun olub...
Qırğın olub –

Şamaxıda, həm Qubada,
Lənkəranda, həm Bakıda,
Gədim torpaq Zəngəzurda,
Qarabağda – Xocalıda-
Qırğın olub! Qırğın olub!.....
Bütün ölkə
yağmalanıb, yaxmalanıb,
başdan-başa Azərbaycan
qan içində çalxalanıb.
Bir daşını göstər mənə,
ocaqlara qalanmasın.
Bir obasın göstər mənə,
var-dövləti talanmasın.
Bircə adam göstər ki, sən
ğirğın ona toxunmasın.
Qırğın olub – soy qırımı,
Soyğun olub – soy qırımı.
Bu qırğınlar, bu soyğunlar,
qanlar töküb, canlar alıb,
yüz minlərlə Türkün oğlu
qanlarına qəltan olub.
Qırğın olub, soyğun olub,
axan sular qanla dolub:
körpə qanı, uşaq qanı,
bu qırğında qan verməyən
insan hanı.
Əsirlərdir bu sulardan
qanlar axır, su durulmur.
Əsirlərdir bu qanları
tökənlərin kimliyi də
heç sorulmur.
Bu torpaqda

insanların qəbir yeri
güney olub, quzey olub,
bu qəbirlər indi dönüb
turistlərə muzey olub:
qan muzeyi, can muzeyi,
baxıb ağla, yan muzeyi.
Bu muzeyin qismətinə
insanların sümükləri –
əl-ayağı, başı düşüb,
elə bil ki,
dünyamızın boş başına,
özü boyda daşı düşüb.
Əsirlərdir dayanmadan
bu kütləvi qəbirlərdən
bir hənirti,bir səs gəlir.
Bu səs bizə qisas deyir,
vardır buna əlinizdə
hər bir imkan,əsas deyir.
Torpaq altda yatanlardan,
qanlarını,canlarını
bu torpağa qatanlardan,
qınaq dolu bir səs gəlir.
“Bir gün gələr...” deyənlərə,
ruhdan düşüb bezənlərə
töhmət dolu o səs deyir:
qisas alın, qisas deyir,
vardır buna əlinizdə
hər bir imkan,əsas deyir.
Qisas yatıb ürəklərdə,
damarlarda laxtalanıb.
Qisas xalqın gözlərində,
mismarlanıb, taxtalanıb.

Əsrlərdir bu həqiqət,
buraxmamış onu rahət.
Şükür olsun ən nahəyət
zaman gəlib qisas deyir,
qisas alın qisas deyir.
Daha bəsdir gözləmişik,
unutmuşuq, ləngimişik,
ovumuzu bərəsində
vurmamışıq,
görməmişik.
Daha bəsdir
qanımıza bələdilər,
kül üfürüb gözümüzə,
başımıza ələdilər.
Daha bəsdir
cilikləndik,
şüşə kimi parça-parça,
çilik-çilik çilikləndik.
Daha bəsdir
canımızdan tikələndik,
bölükləndik,
quzğunların dimdiyində
didim-didim didikləndik.
Daha bəsdir "bir gün gələr..."
Bəsdir, yetər deyinmələr.
Vətən onda Vətən olar,
candan keçən şəhidi var.
Bunu əzbər edənlərə,
"qisasçılıq nəyə lazım"
deyənlərə
bir müjdəm var: A qardaşım,
a sirdaşım-vətəndaşım,

“o gün“ özü
gəlib sənin ayağına,
ümid edir
köməyinə,dayağına.
“Ayağa dur”-“o gün” deyir,
qisas alın, qisas deyir.
vardır buna əlinizdə
hər bir imkan, əsas deyir.
Göyün yeddi qatınadək
ucalıbdır bayrağımız,
Böyük-böyük məclislərdən
gəlir bizim sorağımız.
Var içində millətlərin
öz imzamız, öz adımız.
Müdam sülhə səs verirk,
xeyir işə hürr deyirik.
Terrora da, cihada da
işimizlə dur deyirik.
Bütün dünya bilir ki,biz,
iki dövlət bir millətik.
əməldə bir, işdə birik,
Azərbaycan -Türkiyəyik.
Birlikdədir dayağımız,
enməz bir də bayrağımız.
Həqiqətin haqq yoludur,
məsləkimiz, amalımız.
Günəş kimi parlamada,
açılmada sabahımız.
Sülh hayqırır sənətimiz,
Həm nəğməmiz, həm türkümüz.
Qanad çalır, pərvazlanır,
kahkəşanda peyklərimiz.

Halal olsun, bu dövləti
quranlara!
Bu dövlətin təməlini
belə möhkəm qoyanlara!
Rəhmət olsun!, Rəhmət olsun!
Ulu Heydər babamıza!
işıq saçmış öz zəkası,
hikmətiylə yolumuza.
Hələ belə güclü dövlət
qurmamışıq,
Vətən deyib keşiyində
belə sayıq durmamışıq.
Hazırıqsa əmirlərə
"nə durmuşuq?"
Qisas alın, qisas, qisas.
Vardır buna əlimizdə
hər bir imkan, hər bir əsas.
İndi hər kəs bu torpaqda
cəsarətdən bir don biçir,
bütün qəlblər təlatümdə
mübarizlər candan keçir.
Vətən oğlu – BAŞ KOMANDAN!
Olmaz bir də bu imkadan.
Əmrini ver, zaman keçir
qisas alın, qisas, qisas.
Vardır buna əlimizdə
hər bir imkan, hər bir əsas.
Əsir düşmüş qız gəlinin,
dizi bağlı ər igidin
son kəlməsi-şəhadəti
qisas deyir, qisas, qisas.

Odu sönmüş ocaqların
üçəm qara sac daşları,
qırılmamış ümidlərin
tələş dolu baxışları,
qisas deyir, qisas, qisas.
Həsrət dolu ürəklərin
qurumayan göz yaşları,
neçə yerdən güllələnmiş
qara rəngli baş daşları
qisas deyir, qisas, qisas.
Talan olmuş evlərdəki
soyuq divar daşları da,
təhqir olmuş qəbirlərin
əhlətdəki daşları da
qisas deyir, qisas, qisas.
İşğal altda viran qalmış
şəhərimiz, kəndimiz də,
gecə-gündüz hey ulayan
bayquşların
türk ürpədən qarğışları,
hayqıraraq bu dünyanın
tam kar olmuş qulağına
qisas deyir, qisas, qisas.
Vardır buna əlinizdə
hər bir imkan, hər bir əsas.
Quş qonmayan uca dağlar,
göz dağlayan quru bağlar,
suya həsrət kor bulaqlar
qisas deyir,qisas,qisas.
Vardır buna əlinizdə
hər bir imkan, hər bir əsas.

Bu məsələ uzun müddət
belə açıq qala bilməz,
qara millət bu töhməti
öz boynuna ala biməz.
Zaman ötür böyük millət!
Ayağa dur hünər göstər,
sona yetsin bütün zillət.
Tələb edir yer üzündə
bütün dünya, bəşəriyyət.
Göydə Allah, yerdə insan,
biri aşkar, biri pünhan
qisas deyir, qisas, qisas.
Vardır buna əlinizdə
hər bir imkan, hər bir əsas.
Heç nə görmək istəmirəm
Heç nə bilmək istəmirəm
Nisgil ölmək istəmirəm
qisas alın, qisas, qisas.

ERMƏNİLƏR

Heç bilirsiz oba nədir, Vətən nədir, yurd ha nədir,
Tük ürpədən sızıltı nə, ulartı nə, qurd ha nədir,
Nisgillik nə, qürbətlik nə, qəlb yanğısı, dərd ha nədir,
Nəsli, kökü lənətlilər, əhrimənsoy ermənilər!.

Bilinməyir bu dünyada nə yeriniz, nə soyunuz,
Vətən deyib can verməyib bir qızınız, bir oğlunuz,
Başdanbaşa hiyləgərlik, terrorçuluq hər yolunuz,
Adı, sanı töhmətlilər, əhrimənsoy ermənilər!

Yoğrulubdur xislətiniz qara niyyət, qara daşdan,
Əskik olmur əzəl gündən bu daş ilə yara başdan,
Nə çıxacaq, nədir qazanc, bizim ilə bu savaşdan,
Gələcəyi minnətlilər, əhrimənsoy ermənilər!.

Neçə kərə duymusunuz Türk qılıncın qoymaz qına,
Kəsər, doğrar, rəhm eyləməz harsınına,dığasına,
Tək qulağı miras qalıb babasından balasına,
Allahından bədbəxtlilər, əhrimənsoy ermənilər!.

Çox güvənmə hamı bilən havadarın kimsələrə,
Bir də gördün ocaq sönüb, daş qaralıb, köçüb Lələ,
İt unu tək dağılarsız bir hayımla küçələrə,
İtim kimi hörmətlilər, əhrimənsoy ermənilər!.

Qanımızda yaşayacaq var olurkən bu canımız,
Hələ durur qabaqdadır Xocalıtək qisasımız,
Pusqudayıq, gözləyirik, tətikdədir silahımız,
Başdan böyük qələtlilər, əhrimənsoy ermənilər!.

Çıxın gedin bu torpaqdan hələ səbrim calanmıyıb,
Baban bilir bizim türklər tüpürdüyün yalamıyıb,
Vaxt varikən çarə tapın hələ qurdum ulamıyıb,
Əyri-üyrü qamətlilər, əhrimənsoy ermənilər!.

QÜRBƏT VƏTƏN DEYİL

Vətən oğlu harda olsan,
Evlər tikib yuva qursan,
Demə ömür yaşayırsan,
Qürbət hələ Vətən deyil.

Hara düçsən yad ellilər,
Dara düşsən yad dillilər,
Can deyirlər, yad bilirlər,
Qürbət hələ Vətən deyil.

Qəriblikdir onun adı,
Yad xörəyin olmaz dadı,
Sənin yuvan buradadır,
Qürbət hələ Vətən deyil.

Nə qədər xoş keçsə günün,
Açılsa da qönçə gülün,
Oxumaz şeyda bülbülün,
Qürbət hələ Vətən deyil.

Dağ başını qar alıbdır,
Gül bənizin saralıbdır,
Saçların da ağarıbdır,
Qürbət hələ Vətən deyil.

Bimirsənsə məqsədin nə?
Amalın nə, mətləbin nə?
Cənnət olsa qürbət belə,
Qürbət hələ Vətən deyil.

İGİD ƏSGƏR TƏTİYİ ÇƏK

Ayağa dur, qızılquştək dörd yana sək,
Canını al yağıların, ciyərin sök.
Qalıb ancaq ümidimiz, bil, sənə tək,
İgid əsgər zaman gəlib tətiyi çək.

Sadiq dayan and içdiyin al bayrağa,
Qarı düşmən deyən düşüb əl – ayağa,
Sona çatsın iztirablar xoş gün görək,
İgid əsgər zaman gəlib tətiyi çək.

Aman vermə bir dığaya qaça bilsin,
Başından bas, qoyma qəddin aça bilsin.
Evin dağıt, Yurdun eylə ələk – vələk.
İgid əsgər zaman gəlib tətiyi çək.

Tək deyilsən bu meydanda geriyə bax,
Qardaşların dal yanında daraq-daraq,
Koroğlunun nəvəsisən bir nərə çək,
İgid əsgər zaman gəlib tətiyi çək.

Mərmi yağdır dığaların zay başına,
Lənət yazdır bu iblisin baş daşına,
Xocalının qisasını alaq gərək,
İgid əsgər zaman gəlib tətiyi çək.

Azad olsun Cəbrayılım, Zəngilanım,
At oynadım Qubadlıda, cəngi çalım,
Fizulini, Kəlbəcəri, Laçınımı alın görək,
İgid əsgər zaman gəlib tətiyi çək.

Bir qayda var bu davada, bu savaşda,
Əmri verdi komandanım: “bir qarışda,
bu torpaqdan heç kimsəyə verməyəcək”,
İgid əsgər zaman gəlib tətiyi çək.

Bu səngərdə ayıq durmaq sənin işin,
Tay qulağın kəsməyindir bildirişin,
Sizinlədir açıq – aşkar bu gün fələk,
İgid əsgər zaman gəlib tətiyi çək.

Hayqırtınız, harayınız Qarabağı qoy bürüsün,
Qovun getsin bu torpaqdan it sürüsün.
Dayanmadan irəliyə! Şuşayadək,
İgid əsgər zaman gəlib tətiyi çək.

Torpaq bizim, dərə bizim, dağ bizim,
Yara bizim, məlhəm bizim, dağ bizim,
Olanları unutmayaq biz gərək,
İgid əsgər zaman gəlib tətiyi çək.

Uzun illər həsrət ilə yaşamışıq,
Bu nisgili qəbirlərə daşımışıq,
Vətən deyib, güc göstərək, zor işlədək,
İgid əsgər zaman gəlib tətiyi çək.

QAÇMA, DAYAN, HA !

Elləri dağılan, yurdu kor olan,
Tifaqı pozulan, evləri talan,
İllərdir gözləri yollarda qalan
Biz türkük, gəlirik, qaçma, dayan, ha!

Sanma ki, torpağın yiyəsi yoxdur,
Qalxanı, qılıncı, nizəsi yoxdur,
Bu işin bəlkəsi, niyəsi yoxdur
Biz türkük, gəlirik, qaçma, dayan, ha!

Haqq-hesab sorarıq keçənlər üçün,
Bu yolda ölümü secənlər üçün,
Xəbərdir veririk özünüz seçin.
Biz türkük, gəlirik, qaçma, dayan, ha!

Bir idik, min yerə paralanmışıq,
Ruhumuzdan belə yaralanmışıq,
Qisas almaq üçün sıralanmışıq
Biz türkük, gəlirik, qaçma, dayan, ha!

İlansız,əfisiz, ya quduzmusuz,
Nankorsuz, qatilsiz, ya qudurmusuz,
Nə haqqa gəlmirsiz, nə dinc durmursuz
Biz türkük, gəlirik, qaçma, dayan, ha!

Qadının, uşağın günahı nəydi?
Kimsəsiz çöllərdə pənahı nəydi?
Arxadan vurdunuz, ruhuma dəydi,
Biz türkük, gəlirik, qaçma, dayan, ha!

Gəlirik yenidən Tarix yazmağa,
Gəlirik əbədi zəfər çalmağa,
Gəlirik sizlərə qəbir qazmağa
Biz türkük, gəlirik, qaçma, dayan, ha!

ZƏFƏRLƏRƏ SƏSƏLƏYƏN HƏSRƏT

Həsrət çəkib için-için sızladım,
Dözəmmədim açıq – aşkar bozladım,
Qaya idim xırda-xırda quzladım,
Haray Vətən! Haray Torpaq! Haray El!

Talansa da hər bir zaman sərvətin,
Əl açmayıb heç bir kəsə millətin,
Vardır hələ dizlərində taqətin,
Haray Vətən! Haray Torpaq! Haray El!

Qisas üçün ruh bədəndə durmayır,
Şəhid qanı bulaq kimi qaynayır,
Düşmən biznən qaçdı-tutdu oynayır,
Haray Vətən! Haray Torpaq! Haray El!

Qovaq getsin bu torpaqdan Hayları,
Qan sızlasın dodağında çatları,
Zaman gəlib yəhərləyin atları,
Haray Vətən! Haray Torpaq! Haray El!

Tarix bizi bağışlamaz hər dəfə,
Çaşmaq olmaz, vurmalıyıq hədəfə,
Qisas almaq bizə düşüb bu dəfə,
Haray Vətən! Haray Torpaq! Haray El!

NƏNƏMİN QARA İNƏYİ

Gəlib "qaça-qaçda"düşdük bir kəndə
O da yerləşirdi tamam sərhəddə
"Yəqin qayıdarıq bu gün sabah biz"
Deyib razılaşdıq, məskən saldıq biz
Nənəm qəribsədi, nənəm ağladı
Mənim özümün də anam ağladı

Nənəmin ikicə inəyi vardı
Onun biri qara, birisi aldı
Xiffətdən inəklər saralıb soldu
Köçdük "ala" öldü "qarası" qaldı
Nənəm çox vaysındı, nənəm ağladı
Mənim özümün də anam ağladı

Hamı kimi biz də köçdük şəhərə
Ümid bağlamışdıq gələn səhərə
Bilmədik evləri kimlər dağıtdı
Kimlər mal-qaranı satıb dağırdı
Nənəm bikeflədi, nənəm ağladı
Mənim özümün də anam ağladı

Həmin kəndə döndük bir gün bir səhər
Gözüm axtardığın tapdı bir təhər
"Qara" bağlanmışdır tək bir ağaca
Sanki heyvan dönmüş quru qaxaca
Nənəm qəhərləndi, nənəm ağladı
Mənim özümün də anam ağladı

Nənəmin səsini eşitcək inək
Elə bil üstünə əsdi bir külək
Keçmiş günlərini yadına saldı
Tökdü göz yaşını inək çağladı
Nənəm dözəmmədi, nənəm ağladı
Mənim özümün də anam ağladı

İnək hey yalmandı,inək inlədi
Əl-qolun yaladı qoynun iylədi
Ayaqların döyüb başın yellədi
Bilmədi nə işdi, bu nə kələkdi
Nənəm yaman coşdu, qarğış bağladı
Mənim özümün də anam ağladı

Görənlər bu işə heyran oldular
Udub göz yaşını qəhər boğdular
Hamı bir ağızdan – "lənət"-dedilər
Zülmün səbəbkarın yaman söydülər
Nənəm də düşməni söydü yağladı
Mənim özümün də anam ağladı

YAVAŞ-YAVAŞ

Bir yorğunluq çökmüş idi canımıza,
Bir durğunluq hakim olmuş qanımıza,
Yazılsa da taleyimiz alnımıza
Dayanmırıq, biz gedirik yavaş-yavaş.

Uzaqlarda dost axtardıq halımızda,
Düşmənimiz maskalanıb yanımızda,
Günah desək vardır bizim hamımızda,
Oyanırıq, biz qanırıq yavaş-yavaş.

Halallıq var millətimin mayasında,
İsmətlidir abırında, həyasında,
Güclənirik qardaşlığın sayasında,
Birləşirik bir oluruq yavaş-yavaş.

Kahkəşanda dalğalanır bayrağımız,
Odur bizim and yerimiz, vüqarımız,
Bu bayraqdan od alıbdır çırağımız,
İşıq salır yolumuza yavaş-yavaş.

Məclislərdə qonaq olur dəvət ilə,
Əzizlənir, sayğılanır hörmət ilə,
Dost olurlar bircə kərə görmək ilə,
Tanıyırlar imzamızı yavaş-yavaş.

Səhv yazılıb uzun illər ünvanımız,
Xəstə düşüb həm ruhumuz, həm canımız,
Haqqa gəlir indi-indi nadanımız,
Doğru yola qədəm qoyduq yavaş-yavaş.

İki peykim kahkəşanda qüdrətimiz,
Alay-alay əsgərlərim cürətimiz,
Sülhsevərlik siyasəti hikmətimiz,
Səs salırıq dünyamıza yavaş-yavaş.

YA ALLAH, SƏN QORU! XƏTA SOVUŞSUN

Beynimdə nizamsız şimşəklər çaxır,
Şeytanlar içimdə kin, nifrət toxur,
Qəlbimdən intiqam sədası qopur,
Ya Allah, Sən qoru! Xəta sovuşsun.

Ötüşür həyatım, ötüşür gün-gün,
Özüm öz içimdə düşdüm didərgin,
Vətənsiz bir günüm ömürlük sürgün,
Ya Allah, Sən qoru! Xəta sovuşsun.

Düşmənin hiyləsi artıb birə min,
Qurur hər tərəfdə terrora zəmin,
Gərəkir biz tapaq qisasın çəmin,
Ya Allah, Sən qoru! Xəta sovuşsun.

Qardaşlıq maskası taxıb qonşular.
Təmizə çıxmayır bulanıq sular,
Dayanıb üz-üzə yenə qoşunlar,
Ya Allah, Sən qoru! Xəta sovuşsun.

Bütün xaç dünyası yenə qan deyir,
İkili siyasət Haqqı dan deyir,
Azəri milləti qana-qan deyir,
Ya Allah, Sən qoru! Xəta sovuşsun.

Dünya məndən keçir

ÜMİDİM MƏNİM, DÖZÜMÜM MƏNİM

Ürəyimdə dərd kişnəyir
Səbrimiz barmaq dişləyir
Bıçaq sümiyə işləyir
Zillət necə olur ki, bəs?

Daşlaşıbdır kin içimdə
Dinimiz min bir biçimdə
Başımız duman içində
Zülmət necə olur ki, bəs?

Yatıbdır qara çuxamız
Əllərdə qalıb yaxamız
Gedibdir abır həyamız
İsmət necə olur ki, bəs?

Qəzəbdən biz baş kəsərik
Yontulayıb daş kəsərik
Bilə-bilə çaş kəsərik
Nifrət necə olur ki, bəs?

Meylin varsa gəl danışaq
Əl uzadıb biz barışaq
Həm qaynayaq, həm qarışaq
Söhbət necə olur ki, bəs?

Arandan, dağdan olmuşuq
Ayrandan, yağdan olmuşuq
Dost verən paydan olmuşuq
Qismət necə olur ki, bəs?

Didərgin düşdük çöllərə
Möhtac qaldıq yad əllərə
Dərdlər döndü ağ tellərə
Qürbət necə olur ki, bəs?

Bir gün yəqin oyanarıq
Qisas deyib dayanarıq
Qanımıza boyanarıq
Millət necə olur ki, bəs?

NİYƏ BİZİ QINASINLAR

Necə gəldi işlədiblər,
Tükənibdir taqətimiz.
Yadellilər daşıyıblar,
Talanıbdır sərvətimiz.

Haqqımızı tapdayırlar,
Yoxdur canda taqətimiz.
Soyumuzu tanımırlar,
Töhmət olub qiymətimiz.

At oynadır bu torpaqda,
Bəlli olan düşmənimiz.
Sozalmışıq bir qıraqda,
Vətən bizim qürbətimiz.

Bəsdir oyan qara millət,
Bəlli olsun qüdrətimiz!
Əfv diləsin çəksin zillət,
Çatar buna cürətimiz.

Vətən üçün qilinc çalsaq,
Gələn nəslə ibrətimiz.
Ömür bitir nəzər salsaq,
Tükənmədə möhlətimiz.

BU DAŞ, BU TƏRƏZİ

Ağıl başdan uzaq gəzir,
Biri şahdı, biri vəzir.
Dayanıb əmrə müntəzir,
Buyur, bu daş, bu tərəzi.

Dünya sınaq meydanıdır,
Qatır, ulaq meydanıdır,
Yalan, yaltaq meydanıdır,
Buyur, bu daş, bu tərəzi.

Pambıq ilə baş kəsirlər,
Quru qalıb, yaş kəsirlər,
Belə keçib çox əsirlər,
Buyur, bu daş, bu tərəzi.

Dərdimiz çox, çəkən gərək,
Düşmən gözü tökən gərək,
Belə yazıb zalım fələk,
Buyur, bu daş, bu tərəzi.

Haqqı nahaqq yozanlar var,
Haqqa quyu qazanlar var,
Əhd-ilqarı pozanlar var,
Buyur, bu daş, bu tərəzi.

Məni gəl çox qınama sən,
Dərdimə dərd calama sən,
Tüpürmüsən yalama sən,
Buyur, bu daş, bu tərəzi.

Daş var, bil sən, daş əvəzi,
Daş var bilsən baş əvəzi,
Ölçə bilsən bu mərəzi,
Buyur, bu daş, bu tərəzi.

Çox öyünmə söz bağına,
Götür sən bas, köz bağrına,
Deməsinlər dağ oğluna,
Nəsir, bu daş, bu tərəzi.

ZAMAN, ÖMÜR VƏ MƏN

Kölgə kimi bu ömür, hər vaxt bizinən gedir,
İzləyir qarabaqara, ləpirnən,iznən gedir.
Mən enişdə, yoxuşda, bəxtəvər düznən gedir,
Mənim surətim altmış, güman yüznən gedir.

Doğulduğum dünəndi, gör neçənci il keçib,
Bu yolun dərəsindən, bax neçənci sel keçib.
Qaçhaqaçdı bu dünya, say neçənci el köçüb,
Mənim surətim altmış, zaman yüznən gedir.

Başa düşdüm bu həyat, başdan-başa döyüşdü,
Taleh güldü üzümə, gördüm nə xoş görüşdü.
Zəfər çaldı qismətim, bəxtim mənlə öpüşdü,
Mənim surətim altmış, canan yüznən gedir.

Hər sətirin altında min bir məna gizlədim,
Başa düşüb söz bilən, mətləb qanan gözlədim.
Nadanı, xeyri yoxmuş, ha çəkdim, ha bizlədim,
Mənim surətim altmış, qanan yüznən gedir.

Üz tutdum Qibləgaha, ümid çırağım oldu,
Hikmət dolu Kitabım, Allah dayağım oldu.
Ədalət daş-tərəzim, sevgi yarağım oldu,
Mənim surətim altmış, iman yüznən gedir.

KEÇSİN

Özgə bostanında gözü olan kəs,
Gərəkir atdığı daşından keçsin.
Bir işə söz versə kişi olan kəs,
Gərəkir bu yolda başından keçsin.

Sənə söyləməyə söz tapammıram,
Elə söz deyim ki, qatından keçsin.
Dolansın nəslinin yeddi qatından,
Ağrısı, acısı zatından keçsin.

Nə deyim binədən pisdir xislətin,
Utanır yerinə evdə külfətin.
Kim çəkə bilmirsə Vətən qeyrətin,
Gərək namusundan, arından keçsin.

DÜNYA DÜNYA KİMİ BAŞA DÜŞÜLMÜR

Cavabsız suallar, saysız müəmma,
Şübhəli “bəlkələr” təzadlı “amma”,
Naməlum niyyətlər, subutsuz “əmma”,
Dünya dünya kimi başa düşülmür.

Bir yanda qalmaqal, bir yanda üsyan,
Bir yanda vurhavur, bir yanda tüğyan,
Bir yanda cəhənnəm, bir yanda səlyan,
Dünya dünya kimi başa düşülmür.

Deşik – deşik olub göylərin tağı,
Bəhərə həsrətdir cənnətin bağı,
Açılmır insanın qaşı, qabağı,
Dünya dünya kimi başa düşülmür.

Kimi haqqı danır, kimi imanın,
Gələn sabahlara qalmır gümanın,
Bəlkə günahkardır özü zamanın,
Dünya dünya kimi başa düşülmür

BİR UDUM NƏFƏSİN HÖKMÜ

Bir udun nəfəsin hökmünə bir bax,
Dünyanı qaraldar sənin gözündə.
Bircə an olmasa, ağlına bir tax,
Sarıya çalarmış üzün, gözün də.

Bütün canlıların ümidi onda,
Bir udum nəfəsmiş ömrün əvəzi.
Bilsən nə həngamə qoparmış onda,
Bircə an pozulsa mizan - tərəzi.

Nəyimə lazımdır dünyanın malı,
Bir udum nəfəscə yoxsa dəyəri.
Düşəcək dəyərdən tirməsi, şalı,
Quru nəfəs qədər cəkisi yoxsa.

Nəfsini toparla ey insan oğlu!
Qoyma murdarlansın nəfəsin sənin.
Bir udum havaya möhtac ciyərin,
Bir udum havasız vurmaz ürəyin.

Kor qoyub dünyanı var-dövlət üçün,
Qəbir qazıyırıq özümüz üçün.
Nədən toplayırıq pulları çin-çin,
Bir udum havaya dəymirsə neyçün.

DƏRD SÖZƏ SIĞMAYANDA

Qayalar süstləşib lal olsa dağlar,
Qurusa susuzdan meyvəli bağlar,
Axıdar göz yaşın, ağlar bulaqlar,
Vallah Kəlbəcərin daşı danışar.

Qaçqınlıq adıyla barışmaz elim,
Yüz il qəriblikdə dəyişməz dilim,
Vaxtsız başım üstün alarsa ölüm,
Lal axar gözümün yaşı danışar.

Əsir düşmüş qız-gəlinin isməti,
Qəriblik xiffəti, Vətən həsrəti,
Beləcə yazılmış onun qisməti,
Dili söz tutmasa qaşı danışar.

Elə dağ çəkilib nəsli-kökümə,
Yaraşmır özümə, nə soy- kökümə,
Baxmayıb verilmiş tale hökmünə,
Daşdan heykəllərin başı danışar.

Çıxıb əndazədən halalla haram,
Təzədən qan verir dünənki yaram,
Sızlayan kamanam, inləyən taram,
Aqillər susanda naşı danışar.

DEDİLƏR

Talandı dünyanın varı,dövləti,
Mənə çata-çatda “yoxdu” dedilər.
Allahın verdiyi tanrı qismətin,
Bölməyə qalxdılar “çoxdu” dedilər.

Oyandım yuxudan səhərlər erkən,
Kamandan sıyrılmış “oxdu” dedilər.
Acından taqətsiz bir qurd olurkən,
”Yeriyə bilməyir, ”toxdu” dedilər.

Abır- həya edib həd gözləmişəm,
Saf-çürük eyləyib səd gözləmişəm,
Qaçıb namərdlərdən mərd gözləmişəm,
Təkləndim, tək qaldım, “qorxdu” dedilər.

Beləcə yaşayıb dolmuşam yaşa,
Xeyiri şər ilə görmüşəm qoşa.
Saçlarım ağarıb dən düşüb qaşa,
Sona çatıb ömrün “vaxtdı” dedilər.

MƏDDAHLIQ XƏSTƏLİYİ

Əsib coşub filankəs tribunadan danışır,
Elə bilir qaçacaq ondan bərk-bərk yapışır.
Özü bilməyir deyən! axı çoxdan danışır,
Çoxdanın eybi yoxdur, gəl ki, boş-boş danışır.

Bir deyən yox ”ay qağa,dərdin azarın nədir,
Danışdığın boş şeyin, bilsən xeyri kimədir!
Qulaq asan yoxdur heç, bilinmir kim-kimədir”,
İndi dəbdədir bu iş çoxu boş-boş danışır.

Dediklərin min kərə təkrar-təkrar deyilib,
Yediklərin min kərə təkrar-təkrar yeyilib,
Evdəkilər min kərə təkrar-təkrar söyülüb,
Qızdırması var kimi sanki naxoş danışır.

Qatıbdır bir-birinə olanı-olmayanı,
Özünə arxa sayır sayanı-saymayanı,
Bilmir nəf dura-dura basıb yeyib mayanı,
Ləngər vurur duruşu, qağam sərxoş danışır.

O dəstədən olanlar bəh-bəh deyir ucadan,
Sanki qaranquşdular cəh-cəh vurur yuvadan.
Utanıb-qızarmayıb yerdəki atmacadan
Təbrik edib bir-birin: “Gördün nə xoş danışır”.

Bilirsən? belələri dövrəmizdə nə çoxdur,
Məddahlıqda onların dünyada tayı yoxdur.
Biədəb qiymət versən gözü ac, qarnı toxdu,
Nəyinə lazım düz söz o, qəstdən çaş danışır.

Sevməyir doğru sözü qulaqları kardı, kar,
Görməyir haqq olanı, iki gözdən kordu, kor.
Dili həqiqət deməz, elə bil ki, laldı, lal,
Sükuta dalar tamam, yerinə daş danışar.

Görənlər deyir yəqin alımı danəndədir,
Hər nə desən o bilir, Bəhlulu danəndədir.
Yaman qəzəl oxuyur mükəmməl xanəndədir,
Bir əzası tərpənmir çiynində baş danışır.

Görənlər deyir yəqin alimi danəndədir,
Hər nə desən o bilir, Bəhlulu Danəndədir,
Yaman "qəzəl" oxuyur, bəlkə də "xanəndədir",
Bir əzası tərpənmir, çiynində baş danışır.

DÜNYADA ƏBƏDİ QALA BİLMİRƏM

Elə yazıb bəxtimi bu çərxi fələk,
Dünyadan kamımı ala bilmirəm.
Yas tutub qəlbimin nakam eşqinə,
Bir yanıq Kərəmi çala bilmirəm.

Yer tapa bilmirəm dərdin əlindən,
Zəhər də içmişəm namərd əlindən.
Tutub məhəbbətin sevgi dilindən,
Eşqin göylərində ola bilmirəm.

Nəfismi aldatdı,tamah güc gəldi,
Ədalət azaldı,haqmı seyrəldi,
Yoxsa bunlar tamam adi məsəldi,
Aldandım dövlətə,mala bilmirəm!

Dünyanın hikməti yazılıb daşda,
Xeyi də Şər ilə daim savaşda.
Elə çoxalıb ki, ağ tüklər başda,
Əl atıb birini yola bilmirəm.

Vəsf edib Xudanın gül camalını,
Yığmışam başıma əhli – halımı.
Yumaqdan ötəri günahlarımı,
Dünyada əbədi qala bilmirəm.

Sayrışan ümidlər

ŞAİR ƏLİ RZA XƏLƏFLİNİN ARAZ AĞRISI KİTABINI OXUYANDAN SONRA

Könül verib Araza, vurğun oldu Xələfli,
Dərd üyüdüb sərasər min sir gəlib dünyaya.

Bir əlində sərt qılınc, bir əlində tük qələm,
Ürəyində atəşi, bir şir gəlib dünyaya.

Haqq yolunda döyüşüb, şəhid edib özünü,
Qurban verib canını, bir hürr gəlib dünyaya.

Hər sözü, hər kəlamı xoş rayihə qoxuyar,
Könülləri oxşayan ətir gəlib dünyaya.

Fikir fikiri qovar, fikirdən söz doğular,
Sözlə ilham qovuşub, şeir gəlib dünyaya.

Yox gecəsi, gündüzü, dərdi ümman biçimdə,
Söz sərrafı Əli Rza, Şair gəlib dünyaya.

Qoymaz dərddən sıyrıla, dərd məclisi yetgilər,
Dərd badəsin içməyə, Nəsir gəlib dünyaya.

Hər gecə yalvarıram bir duamı eşitməz,
Fələyin gör qulağın necə kar eyləmişəm.

Bir kərə görmək ilə ol yarın gül camalın,
Gör nə qədər nəf edib, neçə kar eyləmişəm.

Bu Allah nemətidir, gərəkir şükr edəsən,
Qismət edib Yaradan tür şikar eyləmişəm.

Yanıban kül olmuşam mən eşqin ocağında,
Məcnundan beş-betərəm, onu inkar eyləmişəm.

Cəhd etdim dərk eyləyim, nədir bu eşq dünyası,
Fəhm ilə çox sirləri aşikar eyləmişəm.

Aqillər çox çalışıb şərh etsin bu sevdanı,
Neçəsin biixtiyar mən təkrar eyləmişəm.

Çox fikirlər dolaşıb beynimdə həzmə gəlib,
Nəsirəm qələm durub, mən də ar eyləmişəm.

YENƏ SEVMƏK İSTƏYİRƏM

Yeni bir möcüzə yarat İlahim,
Doğulub yenidən dünyaya gəlim.
Yanım, alovlarda ucalsın ahim,
Çatmasın bir yana, çatmasın əlim.

Nakam olsun yenə ilk məhəbbətim,
Dərdlərin acısı olsun qismətim.
Tükənsin tənimdə gücüm, qüvvətim,
Bir kəlmə deməyə yatmasın dilim.

Gözüm yolda qalsın, qulağım səsdə,
Bülbül tək vurnuxum bir dar qəfəsdə.
Sevgiylə alınsın qoy son nəfəs də,
Batsın, bir kimsəyə çatmasın ünüm.

Yeni bir möcüzə yarat İlahim,
Ötən günlərimi yaşaya bilim.
Eşqin alovunda qovrulmaq üçün,
Doğulub yenidən dünyaya gəlim.

ADINI DÜZ DEYƏ BİLMƏDİM!

Elə yaradıb ki, Ulu Yaradan,
Bilmirsən hürüdü yoxsa nədi bu!
Yoğrulub, yapılıb sevgidən, ruhdan,
Bilmirsən mələkdi yoxsa nədi bu!

Bir kərə baxmaqnan olursan haldan,
Tələyə düşürsən üzdəki xaldan,
Doymayır dodaqlar ləbdəki baldan,
Bilmirsən şəkərdi yoxsa nədi bu!

Zülfləri tökülüb gərdəndə çin-çin,
Yerişdə, duruşda bir ağ göyərçin,
Hər sözü məlhəmdir xəstələr üçün,
Bilmirsən təbibdi yoxsa nədi bu!

İstəmirsən dursun gözdən irağa,
Düşər dilə dişə, düşər sorağa,
Qorxursan könüldən düşər uzağa,
Bilmirsən istəkdi yoxsa nədi bu!

Hamı bəh-bəh deyir buxuna, boya,
Baxa da bilmirsən sən doya-doya,
Elə bürünüb ki, abır-həyaya
Bilmirsən ismətdi yoxsa nədi bu!

Bu necə yaranmış, bu necə xilqət,
Bu necə görünüş, bu necə xislət,
Əsir etdi məni bu qəddi-qamət,
Bilmirsən qismətdi yoxsa nədi bu!

BİR DƏ ”YOX” DEMƏ

Bir ömür arxanca baxmışam sənin,
Səni Allah mənə, bir də ”yox” demə.
Hər gün həsrətindən yanmışam sənin
Səni Allah mənə bir də ”yox” demə.

Taleh yenə bizi qoydu üz-üzə,
Vüsal uzun çəkdi, həsrət göz, gözə,
Qarğışmı tutmuşdu, gəldikmi gözə,
Səni Allah mənə, bir də ”yox” demə.

Ömrün çoxu gedib, azı azalıb,
Ümidim arxanca dərin iz salıb.
Gümanım bir yalnız qismətə qalıb,
Səni Allah mənə, bir də ”yox” demə.

Sənsiz nələr gəldi bilsən başıma,
Döndüm tərəzinin pərsəng daşına.
Baxıb gözlərimin axan yaşına,
Səni Allah mənə, bir də ”yox” demə.

Əsli, Kərəm, Məcnun kimdi yanımda,
Sevgidən yoğrulub axan qanım da.
Sənə qurban olsun ruhum, canım da,
Səni Allah mənə, bir də ”yox” demə.

Bir ömür yaşadım əzabla dolu,
Talehə asilik, qəzəblə dolu,
Yenidən keçərəm inan bu yolu,
Səni Allah mənə, bir də ”yox” demə.

Bir dəfə yox dedin ömrüm talandı,
Əlli il ötüşdü sanki yalandı,
Düşünmə ki, Nəsir yüzə qalandı,
Səni Allah mənə, bir də ”yox” demə.

XOŞ GƏLDİN, GƏLİN!

Vağzalı səsilə sən qədəm basıb,
Gəlinlik təxtinə xoş gəldin, gəlin.
Qızlıq ismətini boynundan asıb,
Oğlumun bəxtinə xoş gəldin, gəlin.

Gəlin sözü elə belə ad oldu,
Sən mənin qızımsan, oğlum yad oldu,
Atamın, anamın ruhu şad oldu,
Nəslimə, kökümə xoş gəldin, gəlin.

Hikmətli olginən sözün dağ olsun,
Əkdiyin ,tökdüyün barlı bağ olsun,
Atanın, ananın üzü ağ olsun,
Evimə, ailəmə xoş gəldin, gəlin.

Qohumla, qonşuyla üz-üzə durma,
Kimsənin səhvini üzünə vurma,
Çalış ki, heç kimin qəlbini qırma,
Elimə, obama xoş gəldin, gəlin.

Qız, gəlin içində özünü saxla,
Dilində, sözündə zəmzəmi saxla,
Tamahı, nəfisi, gözünü saxla,
Hörmətə, izzətə xoş gəldin, gəlin.

Qızımı özünə bacı biləsən,
Oğlumun anasın ana biləsən,
Məni də gözündə ata biləsən,
Ömrümə, günümə xoş gəldin, gəlin.

ƏBƏDİ MƏHƏBBƏT HEKAYƏTİ

Uşaqkən gör necə bəxtəvər idim,
Çox şeyi bilmirdim bixəbər idim.
Əlini çəkəndə başıma babam,
Çıxırdı canımdan hər qada balam.
Göydə qanad çalan bir quş olurdum,
Beləcə böyüyüb yaşa dolurdum.
Olmazdı bir qorxum dumandan çəndən,
Qurdlar da tük salar, qaçardı məndən.
Bozdilli atlara kəmənd atardım,
Çəkib ayağını birgə çatardım.
Uçurub çəməndən mən turacları,
Qovardım yuvadan qərib quşları.
Yapışıb dostlarla qurşaq-qurşağa,
Təpədən uçardıq üzü aşağa.
Beləcə uşaqlıq çağlarım ötdü,
Bir göz qırpında sonuna yetdi.
Vaxt gəlib yetişdi, məktəbə getdim,
Oxudum,öyrəndim, mətləbə yetdim.
Düzüb kitabları bir-bir,yan-yana,
Dedim vaqif olum külli cahana.
Boy atdı içimdə böyük arzular,
Əbədi arzular, dönük arzular.
Gah həkim olurdum,gah da ki, hakim,
Olmuşdu qəlbimə fikirlər hakim.
Tərəddüd içində gəzib dolaşdım,
Nəhayət özümə düzgün yol açdım.
Dedim ki, müəllim olaram yəqin,
Bu fikri özümə eylədim təlqin.
Onillik zəhmətim getmədi hədər,
Üzümə gülmüşdü qəzavü-qədər.

Yetişdi cavanlıq, sultanlıq çağım,
Gəldi məclislərdən səsim, sorağım.
Elmin arxasınca uzağa getdim,
Kitablar oxuyub kamala yetdim.
Gördüm ki, həqiqət axtaran çoxdur,
Amma onu tapan, tanıyan yoxdur.
Anladım dünyanın anlamı nədir,
Onu xəlq eyləyən hansı qüvvədir.
Bildim xəlq eyləyib bizləri nədən,
Yoğurmuş nələrdən yapmış nələrdən:
Allah buyurdu ki, yaşasın asan,
Bütün yaranmışın gözəli insan.
Külli ixtiyarı verdi əlinə,
Dəyməsin dedi ki, haram dilinə.
Yol tapıb qəlbinə Şeytan insanın,
Pozdu tifaqını iki cavanın.
O gündən tərsinə fırlanır zaman,
Yer üzü olmuşdur insana məkan.
Özünü saxlasın, yaşasın deyə,
Kitablar göndərdi oxusun deyə.
Oxudu, öyrəndi bu münval ilə,
Döndü aylar günlər minlərlə ilə.
Gəldi Tövrat, İncil, müqəddəs Quran,
Beləcə yetişdi ötüşdü dövran.
Gözəl qamət ilə gözəl camalla,
Belə bir kamalla, min ehtimalla,
Hər gün dostlar ilə deyib gülürdüm,
Nəşəylə, sevinclə dövran sürürdüm.
Bir gün dərsə gedən məktəb yolunda,
Rast gəldim bir qıza mələk donunda.
Elə ki, onunla bir kəlmə kəsdim,
Dilim topuq vurdu külək tək əsdim.

Görəndə buxaqda qapqara xalın,
Dəyişdi əhvalım dəyişdi halım.
Gözaltı gözəlin qamətin süzdüm,
Bu fani dünyadan əlimi üzdüm.
Dindikcə ağzından tökülürdü dür,
Dişlər sədəf kimi dodaqları pür.
Saçlar şahmar kimi belini qucar,
Bənizi Ay kimi işıqlar saçar.
Gəlmiş Qarabağdan bu nazənin qız,
Yerdə bir mələkdi, göylərdə ulduz.
Bircə baxışıyla canımı aldı,
Məni eşq odunun içinə saldı.
Məcnun heçə döndü mənim yanımda,
Cəm oldu aşiqlik mənin canımda.
Bir baxış gör necə evimi yıxdı,
Mən yandım tüstüsü başımdan çıxdı,
Toplayıb özümü "sevirəm" dedim,
Bilməm neçə kərə ölüb dirildim.
Bir az gülümsəyib söylədi ceyran:
"Bilirəm sən mənə olmusan heyran,
Çıxirsan yolumun üstünə müdam,
Sənin bu eşqinə, sevginə şadam.
Ancaq adaxlım var gərək biləsən,
Xahişim budur ki, kənar gəzəsən.
Biləsən bu eşqin ilk məhəbbətin,
Artırır yanımda hörmət izzətin.
Amma qisməti də tapdamaq olmaz,
Ürəyə hökm edib zorlamaq olmaz."
Bu sözlər zəhərlər qatdı aşıma,
Elə bil dünyalar uçdu başıma.
Donuxub qalmışdım bir heykəl kimi,
Axırdı tər məndən daşqın sel kimi.

Dəyişdi bir anda donu dünyanın,
Düşündüm çatmışdır sonu dünyanın.
Beləcə ötüşdü beşcə il tamam,
Məni şişə taxdı bu sevgim yaman.
Hər dəfə gözünə dəyəndə gözüm,
Gördüm ki,canımda qalmayır dözüm.
Yaxşı ki, var imiş ayrılıq,dönüm,
Yoxsa başım üstün alardı ölüm.
Ayrılıq olsa da intizar kədər,
Hər dəfə ölməkdən deyildir betər.
Vüsalın uğrunda olsan da şəhid,
Ona çatmağına bəslərsən ümid.
Ümidlər içində keçməsə ömür,
Yüz ilin bir anlıq zamana dəymir.
O gündən keçsə də çox uzun illər,
Hələ də qəlbimdə qalmışdır izlər.
Sən demə məhəbbət bir bəla imiş,
Eşq özü alınmaz bir qala imiş.
Düşmüş olsa hər kəs eşqin oduna,
Heç kim çata bilməz onun dadına.
Korun-korun tutar alışıb yanar,
Hər an xəyalında ona tapınar.
Beləcə ömrünü çatdırar başa,
Deyər ki, ilk oxum dəyibdir daşa.
Daşlara dəysə də mənim də oxum,
Məhəbbət qəlbimdə salmışdır toxum.
Nə qədər çalışdım unudum onu,
Gördüm ki, görünmür bu yolun sonu.
Bir ömür yaşadım bir ümid dolu,
Gecəsi gündüzü əzabla dolu.
Bir başqa gözəllə izdivac qurdum,
Kədərlə ömrümü mən başa vursum.

Kədərlə yaşayıb kişiləşmişəm,
Özüm də bilmədən ikiləşmişəm.
Üzdə deyib gülən olsam da biri,
İçimdə boğmuşam qəmi kədəri.
Xəyallar içində tənha olanda,
Zühr edib ilk sevgim durub yanımda.
Bir sarı sim üstə havamı çalıb,
Bütün varlığımı əlimdən alıb.
Qovzayıb ruhumu salıb kəməndə,
Özgə bir ixtiyar qalmayıb məndə.
Qalan günlərimi sayıb dururam,
Xəyalla özümü ovundururam.
Çox acı olsa da dərdim kədərim,
İndi şirinləşib keçən günlərim.
Xəyalda özümə çələng hörürəm,
Allaha şükr edib ömür sürürəm.
Nə yaxşı dünyada sevgi var imiş,
Sevgisiz bu dünya tarımar imiş.
Onsuz boş keçərmiş ömür dünyada,
Puç olar ümidlər gedərmiş bada.
Sevgidir dünyanın təməli daşı,
Sevgidir insanın ömür yoldaşı.
Sevgidən yoğurmuş bizləri Allah,
Sevgisiz bir heçik əşədi-billah,
Sevgi gözəl qismət, Allah payıdır,
Keçən hər gün, hər ay, sevgi ayıdır.
Ona qiymət verin qədrini bilin,
Onsuz keçən günü ömürdən silin.

Rus dilindən tərcümələr

Səməd Seyidov
ŞEİRİN DİLİ İLƏ PSİXOLOGİYA

YARADICILIQ DASTANI

Gəlin dostlarım sizə bir hekayət danışım,
Ruh ilə bağlı olan bir əhvalat danışım.
Ruh başın tərpədib işarə verdi,
Ağıllı kişilər yanına gəldi.
Həyatın mənasın tapsınlar deyə,
Rüsxət də verdi o, o gün hərəyə.
Qaranlıq əsirlər dərinliyində,
Keçmiş zamanlarda, günün birində,
Biri-digərindən almadan xəbər,
Həm çinli müdriklər, bir də mələklər,
Platon həm özü, həm də şagirdlər,
Beyin şumladılar, fikir əkdilər.
Dedilər nə edək Allaha çataq,
Ana təbiətlə yarışda udaq.
Ana təbiətlə oxşarımız çox,
Bunu şərh etməyə heç izahım yox.
Dünyada hər şeyi dərk etmək olmaz,
Amma, bu yolları tərk etmək olmaz.
Qalın meşələrin dərinliyində,
Keçilməz cəngəllik ənginliyində,
Yaranmış o qədim mədəniyyəti,
Elmi,düşüncəni, ilahiyyəti,
Gərəkir can ataq, axtarıb tapaq,
Oxuyub öyrənək biz varaq-varaq.

HİNDİSTAN

İlk səfər, qoy olsun, böyük Hindistan,
Həm qədim, həm də ki, özəl bir məkan.
Bu torpaq müqəddəs, həm də uludur,
Burda hər künc-bucaq sirlə doludur.
Ruh haqqında onlar,çox şey bilirlər,
Öyrədib bədəni kamil edirlər.
Bir çay göz önündə hey axıb gedər,
İndusun ruhunu o xilas edər.
Milyonlar bu çaya qurbanlıq gedir,
Bu çayı Budda da ziyarət edir.
Dünyanın zərrəsi olduğun duydu,
Buddist alim özü bir sistem qurdu,
Onun adını da Vedilik qoydu.
Səfil həyat sürən, bu tərkidünya,
Yeni zəfərlərə bayraqdar oldu,
Elmi gələcəyin təməlin qoydu.
Hardan bilərdi ki, bizim birimiz,
Qədim bir yazıya çatar əlimiz.
Vardır bu sənəddə bir çox işarət,
Bu günki elmdən xeyli əlamət.
Bu bir qədim yazı, həm mirasımız,
Orda göstərilib nöqsanlarımız.
Əsirlər keçsə də bir yazı kimi,
Səslənir peyğəmbər avazı kimi.

İNSANİ QÜSURLAR

Pıçıldamış birər-birər onlar bizə əzəl başdan,
İnsan kamil olmamışdır, nöqsanlıdır yaranışdan.
O, həmişə səhv eyləyir, o qədər də dəqiq deyil,
Güvənilməz bir məxluqat, o qədər də kamil deyil.
Lakin, buna baxmayaraq, biz onlara inanmırıq,
İnsan oğlu insanlara başqa gözlə baxammırıq.

İnsanda var bir keyfiyyət, bizə demiş Məleykələr,
Həm aldadar, ələ salar, həm yalandan qan-yaş tökər,
Deyilənlər bir həqiqət, bu insanda bir əlamət.
Axı, indi, biz insanın daxilinə necə girək,
Bu insanın fikirlərin, iç dünyasın necə görək.
Asan deyil bunu etmək, tələb edir bir məharət.

Dünya ki, var, baxırıq biz, başdan-başa içi boşdur,
Lakin, bizə bu boşluqda yaşamağın özü xoşdur.
Artıq uzun illərdi biz, arzu ilə yaşayırıq,
Arzuları özümüzlə, biz hər yana daşıyırıq.
Şirin olur,güclü olur, arzular da zaman-zaman
Uzun illər,aldanaraq,tam onlarla yaşar insan.

Mənim düşüncəmi Böyük Yaradan,
Salıb bir qalaya dustaq eyləyib.
Onun pəncərəsi – qulağım, gözüm,
Onun divarları məndəki dözüm.
Onu görür gözüm, həm duyuram mən,
Onu əllərimlə oxşayıram mən.
Bu qala çox dogma, o mənim evim,
Axı, bu binada yaşayıram mən.

Lakin, bilirəm ki, bu qalanı mən,
Yalnız ölən günü tərk edəcəyəm.

Həyatda həm zəif, tənhadır deyə,
Özünə həmişə dayaq ələyir.
Etdiyi günahı əfv etsin deyə,
Yalvarıb, Allahdan imdad diləyir.
Könül rahatlığı qazanmaq üçün,
Xətadan,bəladan qorunmaq üçün,
Bu yazıq məxluqat necə yaşasın!?
– Unudub talehin verəcəyini,
Qoy özü qazansın gələcəyini.

Çalışdırıb öz ağlını, təlim edib bədənini,
Sən özünü yaratmalı, sən özünü doğmalısan.
Unudaraq dost-tanışı, yaxınlarla əlaqəni,
Gərəkərsə lap aclıqda, sən özünü boğmalısan.
Ətir saçıb çiçək kimi xoşbəxtliyə yaxın olun,
Budur sənin çıxış yolun, kamilliyə gedən yolun.

ÇİN

Dörd əsas nöqsanı hindli bir kahin,
Açıb şərh eylədi,verdi izahın.
Lakin, o, bilmirdi bir aqil çinli,
Çoxdan nöqsanları eyləmiş bəlli.
Birdə ki, çalışmış anlatsın özü,
Yaranmaq, var olmaq tariximizi.
Axtarmış mənbəyin kamilliyin də,
Yaşamaq eşqində, Mənin gücündə.

Yazdığı əsərdə o şərqli dahi
Verdi həqiqətə belə izahı,
Var isə möhtərəm olmağa istək,
Gərək çalışasan, olasan işlək.
Gəl işlə inadla sən üzərində,
Ehtiyac duymasın kimsə gözündə.
Kiməsə nümunə olmaq istəsən,
Ətraf mühitini dəyişməlisən .

Bütün ömrün boyu, söylədi dahi,
Sən yalnız üç dəfə sevə bilərsən.
Birinci, eşq oduna yana bilərsən,
Çünki, günahlardan xali deyilsən.
İkinci, bir şəhvət - adi ehtiras,
Sənə yaranışdan qalmış bir miras.
Üçüncü, həqiqət – sən onu sevsən,
Elmin zirvəsinə qalxa bilərsən.

YUNANISTAN

Aşıban çin səddli uca dağları,
Üzübən müqəddəs, ulu çayları,
Yol tutub gedirik biz üzü qərbə,
Egey dənizinin sahillərinə.
Burda iki dahi - yunansoylular
Biz bilən elmlərin kökün qoydular.

Formal məntiq işin mədəniyyətin,
Elmə daxil edib tətbiq etdilər.
Bir yerə toplayıb öz bildiklərin,
Ruhi qüvvələrdən çələng tikdilər.
Gördülər hər şeydə vardır ziddiyyət,
Natiqlik elmində bu bir məziyyət.

İlkən Aristotel öz əsərində,
Ruhun simasını bəyan eylədi,
Çəkdi öndən,yandan əyan eylədi.
Onun ideyası, əsərlərilə,
Ruh münəccimlikdən üzün döndərdi,
Psixologiyaya – evinə gəldi.

ƏRƏB DÜNYASI

Verildi üç dinin birgə fitvası,
Birləşdi bir oldu Ərəb dünyası.
Tərəqqi yoluna çıxdı bütün Şərq,
Oldular mehriban, oldular həmdərd.
Yunan sevgisinə əmma qatdılar,
Sufizm adı ilə iş yaratdılar.

Ərəb səhrasını, bir də İranı,
Sərgərdan bir mürşüd gəzib dolaşdı,
O zaman qorxulu bir həddi aşdı.
O, əla bilikli kamil bir insan,
Böyük Yaradanı vəsf etmiş hər an,
Sözlə yaratdığı ölməz heç zaman.

Qum təpəli səhranı dolanan dərviş,
Öz varlığına özü, etmiş pərəstiş.
«Allahdan başqa Allah yoxdur» deyənə,
«Mənəm Allah» deyərək cavab söyləmiş.
Böyük Nəsimi o vaxt «Ən əl həqq» demiş,
Yaxın Şərqi özünə heyran eyləmiş.
Bəli, diriykən onun dərisini soydular…
Onu bu yolla, guya, yaşamaqdan qoydular.
Lakin, ölməyib hələ, əsirlərdə yaşayır,
Hurifilik elmində, əməlində yaşayır,
Şagirdinin sözündə, əsərində yaşayır.
Həqiqətin yolları, indi ki, bağlı deyil,
Dörd mərhələ keçərsən, allaha yetişərsən.

Birincidə, insan oğlu, öyrənəcək şəriət,
İkincidə, yansa ürək, tanıyacaq təriqət,

Girsə elmin girdabına biləcəkdir mərifət.
Bil ki, dönüb özlü belə, allah olar nəhayət,
Bu məxluqat dərk eyləsə, bilsə nədir həqiqət.

Bax beləcə ilhamın da, bir mənbəyi askar oldu,
Ruhun sirli dünyasına, o, gizli bir açar oldu.
Hərəkət, ritmika və söz, tamam sirli bir vəhdət,
Qarşındakı poemadır, yada ki,bir hekayət.

II

Zaman boyu beləcə, dördnala çapa-çapa,
Ötüb keçdi ruhumuz, verərək vaxtı bada.
Söz vermişdi sirrini, açacaq bir gün bizə,
Vədini tutmadı o, inansaq da sözünə.
Lakin yenə bilmirik, əvvəllər olduğu tək,
Onu harda axtaraq, harada onu gəzək.

Minilliklər ötüb keçdi,və nəhayət tapdıq yolun,
Köhnəliyi bərpa edib, yeniliyi yaratmağın.
Bircə şeyin izahına, bilirəm ki, çatmır zorum,
Necə oldu yaşamağa, bədənimə girdi ruhum.

O, ilahi bir məşəldir,daim yanar,
Gələcəyə gedən yola işıq salar.
Onu bizə Allah verib, yanmalıdır,
Yanmaq onun həyatdakı amalıdır.
Mümkün deyil fırladasan,zaman oxun tərsinə,
Zaman onun qarşısında, başın əyər köksünə.

İçimizdə bir atəş var, işığı çox, şöləsi gur,
Yandırsa da bir az bizi, o, heç kəsə görünməz nur.

İçindəki o atəşi, qovmalısan sən bayıra,
Yoxsa səni yandırar o, çiçəklənməz Palmira da.

Ürəkləri ğızdırmağa atəş vermiş Allah bizə,
Bir top kimi lazımdır o, hərəkətdə içimizə.
Söndürürük biz özümüz tez-tez onu yanar-yanmaz,
Bilmədən ki, bu dünyada atəş yoxsa isti olmaz.

Həm çox soyuq,həm qaranlıq,qorxu dolu bir dünya var,
O, insanın içindədir, nə işığı, nə nuru var,
İstəmirəm bu dünyanı, o, zülmətin içindədir.
İstəsən ki, sovurasan bu dünyanın qorxusunu,
Məhv edəsən zülmətini, qurtarasan insanını,
İşıq sal sən bu dünyaya qırıb fikir buxovunu.

III

İndi söhbət bu gündən, daha bu andan gedir,
Çox-çox fərqli şeyləri o, bizə bəyan edir.
Yaradıcılıq işləri bu gün o qədər çoxdur,
Onlar hər yeri tutub, sayı-hesabı yoxdur.

Asan olsaydı əgər yaradcılıq işləri,
Oxunmazdı hıçqırıqla Şekspir sonetləri.
Karl Yunqla, Freyd özü – iki dahi, iki düha,
Cəhd edibən, tər tökdülər, tapsınlar cavab buna.

İzləyib Yaradanım qəm-qüssəni, kədəri,
Qəlbimizin evindən qaldırdı pərdələri.
O, ruhun dünyasında əxlaq yuvası tapdı,
Orda dənizdən əsən, şimal küləyi vardı.

Bilirik ki, şüurda biz, hakimi Mütləq O-dur.
Tükənməz onun gücü, şüur alta sahib O-dur
Samiramid bağları tək, başdan-başa möcüzədir
Sirli-sirli qidalanır, həm boy atır, həm bitir O.

Yaradanın işini, Ziqmund təhlil eylədi,
Üç səbəbin varlığın, bizə sübut eylədi.
Dedi ki bu səbəblər, yaranışda bir inci,
Onlardan ən mühümi – arzu gəlir birinci.
Kimdə sevgi yox isə, dedi şəhvət qovacaq,
O, hiss elə hissdir ki, daim sənlə qalacaq.

Qorxu olmuş həmişə, min fəsadın mənbəyi,
Təkcə onun varlığı, puç etmiş ümidləri.
Bu alimsə özünə, başqa bir yolu buldu,
Qorxu ilə ümidə, nigah düyünü qurdu.
Nişanlayıb onları, ara verdi bir qədər,
Dedi zəhməti onun, olmayıbdır heç, hədər,
Yaradan özü imiş, dərin qüssə və kədər.

Yaradanın işində, üçüncü səbəb ki,var,
Ziqmund dedi ki, onu, gəncin ruhunda axtar.
Ata olmaq arzusu, var canında cavanın
Əzəldən axıradək, vektoru var insanın.

IV

Maslou, Adler və Yunq,eyni yolla getdilər,
Yaratmanın aktını, ələk-vələk etdilər.
Boylanıb səhfəsindən, yazdıqları kitabın,
Verməyə çalışdılar, yaratmağın hesabın.

YARADICILIĞIN ZİDDİYYƏTLƏRİ

Yaradanın işində, yaratdığı hər şeydə,
Qəribə bir mənzərə, təqdim olunur bizə.
Kömürün emalından, alınan nefit kimi
İnsanın əməlləri, ziddiyyət şəkilində
Mövcud olur, yaranır, özün verir birüzə

Gör necə də inanmışıq, bəs,həqiqət bir imiş,
Qaranlıqda azana o, yanar çıraq imiş.
Ziddiyyətin özü buna başqa cürə yanaşır,
Hər iki həqiqətin,birliyindən danışır.

MƏNTİQDƏ ZİDDİYYƏT

Yaradıcılıq, təfəkkür, qohumdular binadan,
Eyni kökdən olduğu, sübut olunub çoxdan.
Yaratmağın əsası – o da məlumdur bizə,
Qoyulmayıbdır heç cür, düşüncəli şəkildə.

Biz bilirik təfəkkür, məntiqi əhvalatdır,
Məntiqin təfəkkürlə, birgə marağı vardır.
Nə qədər yaradıcılıq, təfəkkürdən uzaqdır,
Yaradanın məntiqi də, anlaqsız olacaqdır.

ƏXLAQDA ZİDDİYYƏT

Əxlaq ilə məntiq də,cüt qardaşdı binadan,
Məqsədinə onlarsız,çata bilməz yaradan.
Yaradan özü bir gün,üz döndərsə onlardan,
Baş açа bilməz heç kəs, nə ağdan, nə qaradan.

Yaradıcılıq əxlaqın, ziddinə getdi nədən?
Kimdir yüksək dəyəri bəs, haqsız ittiham edən?
O kəsin ki, öz qəlbində, yaratmaq arzusu vardı,
Mümkün deyil qarşı çıxmaq, özü onun ixtiyardı.
Gərəkir insanlar da, unutmasın bir kərə:
Yaradıcılıq həyatdan, məhrum olduğu yerə,
Gecikmədən fəlakət, ayaq açar dübarə.

KƏMİYYƏTDƏ ZİDDİYYƏT

Yaradılmış məhsulların, ziddiyyəti həcmindədir,
O, nə qədər çoxalsa da,azlıq onun cəmindədir.
Artdıqca da gündən-günə, yaratmanın təyinatı,
Məhsulların miqdarına, artıracaq tələbatı.

ARZUDA ZİDDİYYƏT

Yaradıcılıq işini nə vaxt ki, bəyənirik
Ustadını tərif edib, istedaddır deyirik.
Çevirib bəzən onu bir nüfuz alətinə,
Kütün biri olanı dahi kimi öyürük.

Arzumuz budur hər kəs, xariqələr yaratsın,
Yaratmağın yolunda, uca zirvəyə çatsın.
Allahların sirrini, açsa idi insanlar
Dönüb Allah olardıq, yoxsa ki, qara gullar?

DETERMİNİZMDƏ ZİDDİYYƏT

Hər kəsin yaratmağa, öz şəxsi əsası var
Hardan peyda olub o, nə şərhi, izahı var
Səbəb axtarsan buna, dönüb heyran qalarsan
Başqa işə yaramaz, ha cəhd etsən, arasan

Yaratmağın səbəbin, sadə hesab etmə sən
İnkişaf mənbəyidir, qoymaz ruhdan düşəsən
Onu təmin etsəydi, onun bəhrəsi, barı
Başqa əsər yazmağa, sövq etməzdi insanı.

MƏHSULDA ZİDDİYYƏT

Ustadı anlamağa, oxu onun əsərin,
Sərf etmiş ona elmin, çəkmiş ona zəhmətin.
Zəifsə əsər əgər, dillərdə yoxsa adı
Tarix tezcə unudar, bil ki, həmin ustadı.

Yaradılmış məhsullar,evimizə giriblər,
Bu günki günümüzün,zərrəsinə dönüblər.
Ağlımıza gəlmir heç, onu bizə kim verib
Ona axı yaradan,özün qatıb əridib.

Xalqların yaratdığı, buna gözəl misaldır,
Onların nə tarixi, nə də mənşəyi vardır.

Dərindən nəzər salsaq, xalq yaradan dastana,
Bu fikir məxsus olub, yəqin ki, bir insana.

Yaranmış məhsullarda,qaldı daha bir sir də,
Xüsusi təsir vardı,bizə məlum əsərdə.
Nəşə hissi yaradıb, ya da ki, coşqun qəzəb,
Yaradan ayrı düşüb, dörd yanından bu səbəb.

Daim var, kədər, sevinc,insanların üzündə
Kök atıb, cücərirlər, məhsulların özündə
Ucaltsa da yaradanı,başı üstə adamların,
Köklənirlər bu məhsullar fikri üstə insanların

YARADICI ŞƏXSİYYƏT

Tam ziddiyyət içindədir,yaradıcı təbiət,
Çulğaşıbdır, iç-içədir,onda bir çox əlamət.
Hər nə varsa ölülərçün,həm mənasız, həm də çətin
Yaradıcı şəxsiyyətçün, həm asandır, həm də mümkün

Çox güclüdür, qüvvəlidir,yaradanda şəxsiyyət,
Həm sakitdir, həm də həlim, yoxdur onda qəbahət.
Özlüyündə nəhəng olan, o, mürgülü bir vulkan tək
Yalnız zaman ona bəlli, nə vaxt durub püsgürəcək.

Yaradıcı insanlarda, bəli, vardı ağıl payı,
Təbiət də bəxş eləmiş, ona zehni,həm idrakı.
Gör necə də sadəlövhdür, taleləri həll edənlər,
Çətin deyil bircə anda, iki yerə bölünsünlər.

Bir adətdir hər insanda,niyyət etmək, arzu etmək,
Xəyallara qapılaraq, reallığı inkar etmək.

Güclü xəyal, doğru məntiq, birliyini yapmaq üçün,
Yaradanın öz yolu var, bu birliyə çatmaq üçün.

Gəlin göstərim sizə, insanda ziddiyyətin,
Daha bir nişanəsin, daha bir nümunəsin,
Ünsiyyətdə tapır o, özünün ifadəsin.
Yaradıcı adamda, şayə, xəbər, rəvayət
Birlikdə çıxış edib, dönür olur həqiqət

Yaradanın mənində, özgə əlamət də var,
Qəlbin gizli otağından, göndərir bizə çapar.
Zərifliklə kobudluq, birləşdirib köklərin,
İmkan verir şəxsiyyət, başa düşsün işlərin.

V

Yaradıcılıq haqqında, daha sonsuz yaza billik,
O, sirrini verməz bizə, nə biz onu açа billik.
Peyda olsa yenidən, ruhumuzda nifrinlər,
İlk sevgi tək baş tutmaz, ixtiralar, kəşflər.

O, qorxulu günlərin, əzabı əziyyəti,
Qəlbimizdə qalacaq, şirin xatirələr tək.
Yaratmaq bacarığı, açanda öz sirrini
Qoymaz onu tutasan, tezcəcə əriyəcək.

Vacib deyil kimsə bilə, necə baş verib bu akt,
Yaradıcılıq orada, dönüb olub şəksiz fakt.
Yaradanın özü bil, elə o Səcdəgahdı,
Özünə oxşarını, tək İnsanı yaratdı.

Allahım! Bilirəm mən, səni necə mən tapım
Ax, necə də gözəlsən, çox da vardır niqabın,
Nə doğdun**,** nə doğuldun**,** cismində yoxdur canın
Bəs edər ki, yaranmışa, azacıq yaxın gedək,
Həmin anda ruhumuz, yetgin qız tək əsəcək.

Mənə elə gəlir ki, sığınacaq tapıb Allah,
İnsanların özünün, əməlində, işində.
Əgər sənə deyirəmsə, «Səni qorusun Allah»,
Bil ki, sənə deyirəm mən, gəl özünə kömək et,
Hər bəladan sən özünü, Yaratmaqla xilas et.

ŞƏXSİYYƏT

I. Giriş

Bu fani dünyanı anlayım deyə,
Fikirlər içində üzdüm özümü.
Şəxsiyyət haqqında söz yazım deyə,
Sövq etdim bu işə özüm özümü.
Bu işi tələsik tutmamaq üçün,
Düşünüb, daşınıb mən etdim seçim.
Kamil bir şəxsiyyət yaratmaq üçün,
Hazıram çox əziz canımdan keçim.

Əzəldən müxtəlif olsa da tamam,
Min cildə girməyə imkan yaradır.
Çəkib üzümüzə danışan zaman,
Xalqda başqa cürə fikir oyadır.
Bu örtük altında min rola girib,
Deyilmiş bir şeyi təkrar deyirsən.
Qəlbinin tellərin tarıma çəkib,
Çaldığı havaya sən köklənirsən.

Onun bacarığı, həm izzətindən,
Söz açıb ətraflı demək istədim.
Qurluşu, növləri, heysiyyətindən
Şerin dili ilə yazmaq istədim.

Fəlsəfi tərifin vermək istəsək,
Bir çox həqiqətdən əl çəkməliyik.
Bütün cəhətlərə nəzər yetirsək,
Çoxunun üstündən xətt çəkməliyik.

2. Şəxsiyyət və mədəniyyət

Söhbətimin mövzusu qoy olsun mədəniyyət,
Çünki onun içində böyüyür hər şəxsiyyət.
Şəxsiyyətin sirrinə vardır onun açarı,
Bəxş edir mədəniyyət bizə elmi, yazarı.
Hər fikrin, hər arzunun mənbəyi odur desək,
Zəngin eyləsin onu, yaradan özü gərək.

Bərəkətli torpağa bənzəyir mədəniyyət,
Bu torpaqda böyüyür insandakı heysiyyət.
Bir insanda genişdir heç bir ölçüyə sığmaz
Digərində çox kiçik üfürsən izi qalmaz.
İgidliklə qorxaqlıq hər an yanaşı yaşar,
Xoşbəxtlikdir birisi, hər yana işıq saçar,
O biri sayqısızlıq, gözəllikdən yan qaçar.

Hər xalqın tarixində mədəniyyət birinci,
Saxladığı hər dəyər nəsillərçün bir inci.
Dərk edib, anlayanda onun hər bir töhfəsin,
Görürük artırır o, insanın səviyyəsin.
Qaldırır ki, zirvəyə mən də görüm hər yanı,
Dərk etdim,həm anladım bəlkə qoca dünyanı.

3. Arxetiplər

Vardır mədəniyyətdə bir neçə özəl ünsür
Nəzərə alınsın həm, olunsun gözəl təsvir.
Ötən günlər də bir-bir, gərək yada salınsın,
Bugünki hesabatda, mütləq qeydə alınsın.
Bu söhbət yadda qalan olmuş olaydan gedir,
Tarixdə izləri var, keçmişdən xəbər verir.

Hər iki başlanğıcı əks etdirir özündə,
Keçmiş fikir bərq vurur gələcəyin gözündə.
Onlar öz varlığımı iki ox tək yarırlar,
Zamanlar arasında möhkəm körpü salırlar.

İlk olaraq bu işə nəzər saldı Yunq özü,
Rədd edib yamanladı deyilmiş cəfəng sözü.
Göstərib zamanları birləşdirən sirləri,
Təsdiq etdi bununla dediyi fikirləri.
Ruhun özündə vardır, bu müəmma, bu sirrlər,
Genetik əlamətlər yəqin ki, irsidirlər.

Risk edib kim deyərdi, şəxsiyyətdə fikirlər,
Həyatda olduğu tək, salır qəlbdə körpülər.
Nağıllardan süzülən ideyalar, fikirlər,
Ölməzlik verdi Yunqa, adlanıb Arxetiplər.

Fikir sürüb irəliyə Yunq dedi ki,arxetiplər,
Özümüzə, sözümüzə münasibət bildirirlər.
Obraz kimi,arzu kimi,bir davranış formasında,
Kodlarını nəsillərdən-nəsillərə ötürürlər.

Sübut edib Yunq özü ərz eylədi nəhayət,
Hər hansı şəxsiyyətdə vardır dörd cür əlamət.
Ruhi aləmdə öncə bilin ki, gəlir şəhvət,
Bir heyvani hissdir bu, vardır onda qəbahət
Uysa ona hər bir kəs, bəsləsə ona hörmət
Uçar başına dünya, qopar o an qiyamət.

İkinci təmayül var, dahi ona Mən dedi,
Bu sözlərlə həyata, münasibət bildirdi.
Yunq dedi fikirlərin, bir də bütün əməlin,
Arxetipdə tapacaq hər kəs yəqin təməlin.

Cəlb edibən bizləri o, ruhun sirli dünyasına,
Dedi seksin təsiri var ünsiyyətin formasına.
«Anima»dır qadınlığın bir incəlik nişanəsi,
«Animus»sa kişiliyin bir əzəli nümunəsi.

Dəxli yoxdur kişi, qadın, qaça bilməz arxetipdən,
Qeyri adi bir qüvvə tək peyda olar o, qəflətdən.
Kişiliyi göstərməyə, sən nə qədər cəhd etsən də,
Qadınlığa istəyini – hiylən keçməz gizlətsəndə.

İndi bizə aydın oldu arxetipin rolu nədir,
Qədim mifik fikir seli onlar ilə bizə gəlir.
Mümkün deyil inkar etmək, nə diqqətdən yayınar o,
Mədəniyyətlə şüurda, ulduz kimi sayrışar o.

4. Şəxsiyyətin neotipi

Var insanın süurunda bir çox bəlli elementlər,
Onlarınsa üzərində hakim deyil arxetiplər.
Bəzi gizli məqamlar var, aydın deyil özümüzə,
Onun əksi opponentlər işıq salır zehnimizə.
Tapammırıq həyatda biz, nə bir timsal, nə də ki, tip,
Çox zəngindir onun özü – adın qoydum mən Neotip.

Şüuraltı fikirlərdən gəlin bir az uzaq duraq
Neotipin hər dəyərdə təsirinə şahid olaq.
Ağlımıza fikirlər onlardan min-min axır,
Onlarla da şəxsiyyət cahana açıq baxır.
Biliklərdən şəxsiyyət, özünə sistem qurur,
Onlar da şəxsiyyətə, həyatda dayaq durur.

Min çalarlı fikir kimi, formalaşıb bu həyatda,
Yol göstərir neotiplər, davranışda, həm əxlaqda.
Ən yaxşı bir nümunə tək, sipər olur düşüncəmə,
Qanunlar tək yazılaraq, göndərilib sanki mənə

Dəyəri var bizim üçün, qədim dini yazıların
Talmud, İncil, Quran kimi, çox müqəddəs kitabların.
Neotiplər düşüncənin, axı, vacib hissəsidir,
O, müqəddəs kitabların bizə çatan töhfəsidir.
Aid edib şüurumuzu, hər bir şeyin qayəsinə,
Şərh edərək yol tapırlar, dəyərlərin sisteminə.

5. Şəxsiyyətin təyin edilməsi

Keçərək ruhumuzun məngənəsindən,
Fikirlər aləminin dar döngəsindən,
Şəxsiyyətə gedən yolu tapa bildik,
Onda olan mahiyyəti açа bildik.
Öyrəndik ki, şəxsiyyət real həyatda,
Fikrimizin təcalla etməsindədir.
Olsa da o, yaddaşın dərin qatında
Niyyəti ağlımızın zirvəsindədir.

6. Şəxsiyyətin tipləri

Olsa da bu günün mücəssəməsi,
Ondadır tarixin avazı, səsi.
Ürəkdən asılmış qıfıl təhəri,
Qorumuş hər kəsdən bütün sirləri.
Sirrə sahib çıxmaq, sirri qorumaq,
Ona hər bir kəsdə oyatmış maraq.
Alimlər gözündə o, gözəl sənəm,
Onu öyrənməyə verilmiş önəm.

Bax, beləcə şəxsiyyəti, biz göylərə ucaltdıq,
Hər an onu tərif edib, nüfuzunu çoxaltdıq.
Təyin edib statusun, təsdiqlərkən mövqeyin,
O tipajdır ya marqinal? Cavabını siz deyin.
Mən nəzmə çəkilmiş əsərlərimdə,
Demirəm kimlərsə mənə inansın.
Fikirlər haqqında fikirlər deyib,
Sətirlər içində fərqi axtarsın.

Heç şübhəsiz, şəxsiyyət də, çox nadir məxluqatdır,
İnsan isə çox bənzərsiz, təkrarsız fərdiyyatdır.
Lakin, vardır şəxsiyyətdə başqa səxsin əlaməti,
Adətləri, davranışı, xarakteri, qabliyyəti.
Nəzər salıb işimizə, son qoyaraq sözümüzə,
Altı tipajın özünü, təsvir edək bir-bir sizə.
Onlar bizə imkan verir, insan haqqda çox şey bilək,
Hər insana məxsus olan keyfiyyəti biz öyrənək.

7. Hedonist tip (həyatı zövq və səfa bilənlər)

Altı ədəd fərqli tip, altıca əməl,
Birincidə qoyulmuş çox gizli təməl.
Onda bir şüursuzluq adəti varmış,
Əcdadlardan o, bizə yadigar qalmış.
Qoyulmuş içimizə çox gizli kodlar,
Onlar bizdə heyvani hisslər oyadar.
Onların əməlləri şeytana bənzər,
Tor qurub, şirin dillə, səni də əzər.

Onun zülmət yaradan pərdəsi vardır,
Orda şər qüvvələri məskən salıbdır.

Burada sən özünə bir yol seçirsən,
Son ucu məşhər olan yolla gedirsən.
Qorxulu olsa belə, bu yolun sonu,
Çoxları var könüllü seçirlər onu.
Bu yolu hipnoz altda sevib gedirlər,
Bu təsir altında da ömür sürürlər.
Hedonizmin mənası, məzmunu hələ,
Ta qədim zamanlardan məlumdur belə.
Təşkil eyləyən odur, məğzin, qayəsin,
Belə bir tipdən olan şəxsiyyətlərin.

8. Seduktiv tip

Nəfs olmasa yəqin ki, həyat duzsuz olardı,
İnanmıram mən ondan kimsə ləzzət alardı.
Çox yemişik özümüz haram olan malları,
Unutmuşuq bilmədən çox ədəb-ərkanları.
Nəfs qovur hər bir zaman tamahkar adamları,
Axı, sevə bilməyir, ağıllı insanları.
Özünü çox sevdirir durmadan o kəslərə,
Çox səmimi, sadədil, tez aldanan şəxslərə.
Belə rəfdar üsulu, desək sözün düzünü,
İmkan verir görək biz, insanın hər üzünü.
Seduktiv dedik ona, əldə olan əsasla,
Cəzb eyləyir özünə, bizləri ehtirasla.

9. Evaziv tip

Bax bizim aramızda yenə bir tip yaşayır,
Özü ilə qəribə belə bir hal daşıyır.
Cavab saxlamaq onu gətiribdir lap cana
Real həyat həmişə qorxu olubdur ona

Göstəbəktək hər şeydən o qorxur və çəkinir
Hər səsdən səksənərək yuvasına çəkilir
Ağzını bağlayaraq, unutmur göz yummağı
Zəhmət vermir özünə, üstün tutur susmağı
Məsuliyyət onunçün zəhərdən də çox acı,
Bütün qəlbin yandırır, yoxdur onun əlacı.
Verməz özün irəli, ön cərgədə dayanmaz,
Nə əkər, nə becərər, yeməkdə geri qalmaz.
Qorxaq bir məxluqatdır, həm də igid, qəhrəman
Cəsarətli fikirdən uzaq durar hər zaman
Fırtınalar qopanda o, özündə olmayır
Sakitlik yarananda ona bir tay qalmayır.

10. Eqosentrik tip

Çətin deyil heç kimə təsvir etmək ən azı,
Hamı üçün hər zaman məlum olan tipajı.
Belə insan boğaraq öz içində öz hirsin,
İstəyir o, hamıya hər vaxt fağır görsənsin.

Toplayıb fikirlərin,həm də bütün niyyətin,
Bir məqsəd uğrunda o, hey döyüşür çox mətin.
Fəth eyləsə taxt-tacın göyə dəyən zirvəsin,
Eşidəcək tərifin cəh-cəh vuran şən səsin.

Onun qəlbində yenə başqa bir amal da var.
Özünü başqasından həddən çox üstün tutar.
Əvvəlcə dünya ona qoy elə xali olsun,
Sonradan başqasına görüm müyəssər olsun.

11. Konvinsiv tip

Həyatda özümüz də, elə tez-tez görürük,
Arzulardan gör necə, gözəl çələng hörürük.
Adam var çətinliyə, öz sinəsin tez gərir,
Hər əmrə dayanır o, həm hazır,həm müntəzir.
Qorxmayır o, həyatın, ağır çətinliyindən,
Əl çəkməyir heç zaman, özü mətinliyindən,
Dar günündə xalqının, arxa, dayağı olur,
Əlində qələbənin zəfər bayrağı olur.
Peşman olmaz heç zaman, arxasınca kim gedər,
O, getdiyi yerlərə, işıq saçar, nur çilər.
Həmişə kütlələrə, müzəffər rəhbər olub,
Eşitməyib kim səsin, yəqin o kəs kar olub.

12. Refleksiv tip

Sonuncu tip daxilən, çox-çox zənginin biri,
Onunla heç çəkəmməz, varlıların yüz mini.
Kamildir ki, o qədər, desəm sözün düzünü,
Ona tay tuta bilməz, heç kəs özü özünü.
Ömürlük dustaq kimi xəyallara o, dalıb
Burdan azad olmağa ümidləri azalıb.
Bir dünya yaradır o, özünə hər gün özü,
Hökm eyləyir bu yerdə onun özü,həm sözü.
Ağılla tikilsə də, onun xəyal dünyası,
O, real görünmürdü, yoxdur onun mənası.
Bu dünyanın içində, bəli, o, xoşbəxt idi,
Gizlincə insanlara, xoş əhval bəxş edirdi.

13. Nəticə

Bütün bu hekayətin, yazarı desəm mənəm,
Suallara cavab da, gərəkir özüm verəm.
Zəhmət çəkib yep-yeni, mən fikirlər söylədim,
Bu fonda şəxsiyyətin, təqdimatın eylədim.

Çoxcəhətlidir desək,fenomenlik özü də,
Çatmaz onu şərh etsin hər kişinin gücü də.
Qınama gəl,oxucum,sən özünü özün də,
Bu şeir çox qəlizdir qüvvə topla özündə.

Talehin gur qaynayan, qazanında mən,bilin,
Qurluşla qarışdırdım, özün duyğunun, tipin.
Şəxsiyyətin özündə tapdım tamam birliyin,
Kültür ilə, zamanın, bir də mübarizliyin.

KİM BÖLÜB MƏNİM GÖZƏL DÜNYAMI?

Kim bölüb, görəsən, mənim dünyamı,
Bəs, onda ikiyə nədən bölübdür?
Həm sərbəst, həm ayrı, iki dünyanı,
Məni yaşamağa məcbur edibdir?

Biri ruh dünyası, şüur dünyası,
Orda fikir yaşar, dəyərlər yaşar.
Biri maddi dünya, şeylər dünyası,
Onun əsasında məhsullar durar.

Necə də an kimi ötüşür illər,
Çapır kəhər atın yetir min illər.
Dəyişmir sualın məğzi, qayəsi
Cavab istər bizdən onun hərəsi.

Qarşımda cox çətin bir sual durub:
Öncə materiya, yoxsa ruh olub?
Gəl, indi birbəbir biz baxıb görək
Bu haqda alimlər nələr deyəcək.

Müdrik alim Platon, hər kəsdən öncə
İdeyanı ilkin hesab eylədi
Əşyaya gəldikdə, əşya deyincə
"Ondan uzaq durun"- bizə söylədi.

Deyir ki, əbədidir ideya özü,
Mahiyyəti mükəmməl, uzundur ömrü.
Şeylər isə dəyişkən, həm də fanidir,
Vaxt keçər, bitər ömrü, onlar anidir.

Demokrit, o filosof, həm də ki, səyyah,
Elmlərin də çoxundan, olmuşdur agah.
Demişdir ki, ATOM-dur həyatın canı,
Odur bəs, kainatın ilkin memarı.

Rədd edib ideyadan danışıqları,
Ən birinci yerə o, atomu qatdı.
Sovurub ağıllardan çaxnaşmaları
Atomların özündən dünya yaratdı.

Kim haqlıdır görəsən? Siz deyin biz də bilək?
İxtiyar yoxdur deyən, bunları biz həll edək.
Var elmin qarşısında, çox-çox ciddi bir sual:
Öncə Əşya yaranıb, yoxsa görən Ehtimal?

Mən yazmışdım deyəsən, biz öyrəncək olmuşuq,
Deyək həqiqət birdir – heç bunu danmamışıq.
Aydınlıq gətirirsə, fikirlərə, məsləkə,
Gərəkir işıq salsın, qaranlığa, zülmətə.

Yaratmağın özümüz, dərk edibən sirlərin,
İşlətdik yanaşmanın tamam başqa növlərin.
Aydın oldu bizlərə, gördük ki, bəs cavablar,
Danışır birliyindən hər iki həqiqətin.

Qorxu doğurmasa da bu fikir məndə,
İki gerçəklik varmış bir həqiqətdə.
Ayırsaq biz onları, biri-birindən,
Qurtara bilmərik heç, təzad əlindən.

Platon nə vaxt durub «İdeya»-dedi,
Onun ilkinliyin qəbul eylədi,

O vaxtdan əminəm, edim etiraf,
Düşmüş fikirlərə dərin ixtilaf.

Ey! Mənin dostum Platon, ey böyük insan!
Dahi olsan da belə sənin ixtiran,
Vursa da dünyamıza yeni naxışlar,
Yaratdı ona qarşı yalnış baxışlar.

İdeyanı həyatın mənası bildin,
İkinci tərəfə sən göz yetirmədin.
Bəs,özün bilmirdin ki, cansız fikirlər,
Təbiətin özündən iz götürüblər.

Həm Demokritin özü,həm də Epikür,
Səhf eləyiblər tamam elə eyni cür.
Hər biri əsərini yazdığı zaman,
Materiya ilkindir – edibmiş güman.

Məhv edib bizdəki ideyaları
Şeylərə yönəldi öz baxışları
Lakin, bilmədilər maddi aləmin
Vardır ilahidən öz naxışları

Belə çıxır onda, yoxdur ziddiyyət,
Nə mübarizə var, nə də ki, vəhdət.
Həm hadisələrin təzahüründə
Həm də paradoksal tale gücündə

Gərəkir ki,yenidən təsbit olunsun,
Rədd edilmiş fikirlər qəbul olunsun.
Qusseril dəfələrlə bir tezis kimi,
Təklif eyləmiş bunu doğru yol kimi.

Təhlil edib mən onun etdiyi zikirləri,
Gördüm ki, deməmişdir dediyim fikirləri.
Dahiliyin yarısın divanəlik sayıram,
Xeyirdə Şər olduğun, özüm vurğulayıram.

Gərəkir bölməyəydik iki yerə işləri!
Necə ki,bölmüşük biz həm xeyiri,həm şəri.
Həyatı da ölümdən biz ayrıca tutmuşuq,
Axtarıb Ruhun özün bədəni unutmuşuq.

Fikirlərin özündə desək ki, maddilik var,
Bədənin özündə bil, paklıq var, qüdsiyyət var.
Desəm ki, bax burada, yoxdur heç bir ziddiyyət,
Dərk etmək üçün səndə gərək olsun bir niyyət.

Diri olsam da özüm, yavaş-yavaş ölürəm,
Çox sevsəmdə həyatı, getməliyəm bilirəm.
Azad olmaqçün tamam gərəkir dustaq olam
Lazımdır bunun üçün qoluma qandal vuram.

O kəsi ki, özümə, düşmən hesab etmişəm,
Əmin ola bilərsən o kəs elə özüməm.
Hər iki həqiqəti, açıb əyan edirəm,
Yorulmaq bilmədən heç, onu təkrar edirəm.

Qorxulu olsada mən aşdım bütün həddləri,
Parçaladım, dağıtdım vurulmuş düyünləri.
Birləşdirib bir yerə gözəl dünya yaratdım,
İki yerə böldüyüm, dağıtdığım şeyləri.

O məndən çox uzaqda, mən onun içindəyəm,
Onu tamam qavramaq, başa düşmək istərəm.
Möcüzəyə uymadan, and içmədən ona heç,
Necə varsa eləcə qəbul etmək istərəm.

FİLOSOF ŞPENQLER HAQLI İDİMİ?

-1-

Ruhi aləm haqqında yazan kəsləri,
Bu aləmdən xəbərdar olan kəsləri,
Şpenqler əsərində təhlil eylədi,
Ortabab alim kimi təqdim eylədi.

Acığı tutmuşdu ki, psixologiya,
Niyə bəs cavab vermir,belə sorğuya:
İradəni biz necə idarə edək?
Varmı,yoxmu bizdə o, hardan öyrənək?

Gərəksiz bir ağıllı olmamaq üçün,
Dəstədən də geridə qalmamaq üçün.
Qərara aldım ki, başqa yol keçim,
Qiymətli əsərlər axtarım, seçim.

-2-

Əgər, sən istəsən vəkil olasan,
Gərək bircə şeyə nəzər salasan.
Vardır şəxsiyyətdə üç ədəd məfhum,
Onların arasında yoxdur uçurum.

Həm arzu, hərəkət, həm də ki, hisslər,
Bizləri qoruyar bu üç mələklər.
Qoymazlar kimsəni ruhdan düşməyə,
Qaldırar hər kəsi dağdan yüksəyə.

Başqa bir çıxış yox, qapanıb yollar,
Ömürlük bitişik yaranıb onlar.
Biri digərindən ayrılmaz bir an,
Onlardan yoğrulub yaranıb insan.

Hiss nədir, arzu nədir biz necə biləк,
Onların hərəkətin bəs necə görək?
Necə oldu ki, insan çölün düzündə,
Peyda oldu qəflətən yerin üzündə?

Hissin, arzuların bir də zəhmətin,
Əsas mənbəyini tapmaq çox çətin?
Necə təsvir edək, axı nə edək,
Əqli prosesi bəs, necə öyrənək?

Müqəddəs yazılara tapınaq bəlkə,
Quranla İncili biz, oxuyaq bəlkə.
İnanc yeri olsa da kitablarımız,
Cavabsız qaldı yenə suallarımız.

Şübhəsiz müqəddəsdir Allahın sözü,
İman bəsləyir ona hər kəsin özü.
Elmin dili ilə biz, izah eyləsək,
Ömrümüz bir xəyal tək olub bitəcək.

-3-

Hisslər çox qəribə, cürbəcür olub,
Dəlilik həddinə yetə də bilir,
Elmin zirvəsinin yolların bulub,
Bizi arxasınca çəkə də bilir.

Ancaq qəribəlik sadəcə olmur
Onu əsasında bir fikir durur.
Hərəkət özü də fikirdən doğur
Hissin özündə də bir fikir olur.

İndi özüm bilirəm cəsarət nədir,
İradənin yolların tapıb gedəcəm.
Mənim arzularımın o, körpəsidir,
Onları tənbəllikdən xilas edəcəm.

Deməli İradə böyük bir qüvvə,
Çox şeyi dəyişir ondakı həmlə.
Yaradır şüurda dəyər sistemi,
O, da iş görməyə sövq edir bizi.

İradəylə cilovlansa əlimizdə hisslərimiz,
Görün necə qəhrəmanlıq göstərməyə qadirik biz.
Tapılarmı təbiətin elə güclü maniəsi,
Bizdə olan iradəni sındırmağa var qüvvəsi.

DOĞRUMU DEYİRDİ CƏNAB ŞPENQLER?

Ruh və söz

Çox istərdim ki, ey ruh, səni dərk edim
Sən ki, «şey özündəsən» necə dərk edim
Cəhd eylədim şerimdə səni vəsf edim
Sığmayır hüdudların sözə nə edim

Nədir bəs ölməz edən səni dünyada?
Kiminlə əhdi-peyman bağlamısan sən?
Söylə sən bu vücudla fani dünyada,
Necə bəs yola gedib, dil tapmısan sən?

Elə ki, qəmli oldun dünya qaralır
Sənin sevincindən günəş od alır.
Birinin könlün alıb razı salırsan,
Surətinlə digərinin ağlın alırsan.

İlahi qüvvə tək təcəssüm edib,
Təcəlla tapmısan canlı, cansızda.
Söz ilə birləşib, hər gün gəşd edib,
Məna yaradırsan hər bir varlıqda.

Birinci söz deyilib olandan məruf,
Qadirsən hər bir işə, ey müqəddəs ruh.
Doğulmuş hər körpəyə nəfəs verirsən,
Hər şeyi ana kimi sən öyrədirsən.

Geyinib əyninə sözdən donunu,
Qəlblərə girməyin yolun bilirsən.
Bələyib fikirə sağı-solunu,
Arzu ilə, ümidlə kama yetirsən.

Birləşib ruh ilə bu dünyada söz,
Birlikdə möcüzə yarada bilir.
Ya Şekspirdə özünü təcəssüm edir,
Ya Çerçilin nitqinə bərbəzək verir.

MÜNDƏRİCAT

ÖN SÖZ 3

ZƏFƏRLƏRƏ SƏSLƏYƏN HƏSRƏT

QİSAS.....8
ERMƏNİLƏR.....19
QÜRBƏT VƏTƏN DEYİL.....20
İGİD ƏSGƏR TƏTİYİ ÇƏK 21
QAÇMA, DAYAN, HA!.....23
ZƏFƏRLƏRƏ SƏSƏLƏYƏN HƏSRƏT.....24
NƏNƏMİN QARA İNƏYİ 25
YAVAŞ-YAVAŞ 27
YA ALLAH, SƏN QORU! XƏTA SOVUŞSUN.....28

DÜNYA MƏNDƏN KEÇİR

ÜMİDİM MƏNİM, DÖZÜMÜM MƏNİM.....30
NİYƏ BİZİ QINASINLAR 32
BU DAŞ, BU TƏRƏZİ.....33
ZAMAN, ÖMÜR VƏ MƏN.....35
KEÇSİN.....36
DÜNYA DÜNYA KİMİ BAŞA DÜŞÜLMÜR.....37
BİR UDUM NƏFƏSİN HÖKMÜ 38
DƏRD SÖZƏ SIĞMAYANDA.....39
DEDİLƏR 40
MƏDDAHLIQ XƏSTƏLİYİ.....41
DÜNYADA ƏBƏDİ QALA BİLMİRƏM 43

SAYRIŞAN ÜMİDLƏR

ŞAİR ƏLİ RZA XƏLƏFLİNİN....46
ARAZ AĞRISI KİTABINI OXUYANDAN SONRA....46
YENƏ SEVMƏK İSTƏYİRƏM....48
ADINI DÜZ DEYƏ BİLMƏDİM!....49
BİR DƏ "YOX" DEMƏ....50
XOŞ GƏLDİN, GƏLİN!....51
ƏBƏDİ MƏHƏBBƏT HEKAYƏTİ....52

RUS DİLİNDƏN TƏRCÜMƏLƏR

Səməd Seyidov ŞEİRİN DİLİ İLƏ PSİXOLOGİYA....58
YARADICILIQ DASTANI....58
HİNDİSTAN....59
İNSANİ QÜSURLAR....60
ÇİN....62
YUNANISTAN....63
ƏRƏB DÜNYASI....64
YARADICILIĞIN ZİDDİYYƏTLƏRİ....68
MƏNTİQDƏ ZİDDİYYƏT....68
ƏXLAQDA ZİDDİYYƏT....69
KƏMİYYƏTDƏ ZİDDİYYƏT....69
ARZUDA ZİDDİYYƏT....69
DETERMİNİZMDƏ ZİDDİYYƏT....70
MƏHSULDA ZİDDİYYƏT....70
YARADICI ŞƏXSİYYƏT....71
ŞƏXSİYYƏT....74
KİM BÖLÜB MƏNİM GÖZƏL DÜNYAMI?....84
FİLOSOF ŞPENQLER HAQLI İDİMİ?....88
DOĞRUMU DEYİRDİ CƏNAB ŞPENQLER?....91

Nəsir Qədirli

QİSAS

Bakı – Mütərcim – 2018

Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.

Çapa imzalanıb: 04.06.2018.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 6 ç.v. Tiraj: 100. Sifariş № 155.
Qiyməti müqavilə ilə.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru
www.mutercim.az